# TARİXİMİZİN FACİƏLİ SƏHİFƏLƏRİ:

# SOYQIRIMI

19051

Азәрбајҹан Республикасы Президенти Ишләр Идарәси Т... фат шө'бәсинин
КИТ..ХАНАСЫ
Библиотека Хозяйственного отдела
Управления Делами Президента
... Республики

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN NƏŞRİ

Bakı - 2000

**Məsul redaktor**
**Murtuz ƏLƏSGƏROV**

# AZƏRBAYCANLILARIN SOYQIRIMI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə əslində azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu.

"Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başladı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədi ilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə-yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər.

Birinci dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla



həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədi ilə fövqəladə istintaq komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədi ilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli

mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. "Yazıq, məzlum erməni xalqı"nın surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırımı törədənlər soyqırımı qurbanları kimi qələmə verilirdi.

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verir.

Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır.

Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırımı siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı. Ermənilərin sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-ci illərin ortalarında daha da güclənən antiazərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi.



1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri-konstitusion qərarını və Moskvanın əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədi ilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdular. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə-yeksan edilməsi ilə qurtardı.

Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürist hərəkətin nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarımızın zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci

il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhüriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədi ilə **qərara alıram:**

1. 31 mart azərbaycanlıların soyqırımı günü elan edilsin.
2. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, azərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxsın.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

Bakı şəhəri, 26 mart 1998-ci il.



# AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ İLƏ ƏLAQƏDAR

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN BƏYANATI

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidenti Zati-aliləri cənab Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanının tariximizin bu qaranlıq səhifələrinə işıq saçan ilk rəsmi sənəd kimi böyük əhəmiyyətini qeyd edir və 80 il bundan əvvəl azərbaycanlılara qarşı törədilmiş cinayətlərin ildönümü ərəfəsində 31 mart gününü "Azərbaycanlıların soyqırımı günü" elan etməsini milli yaddaşımızı dirçəldən, tarixi həqiqətlərin üzə çıxmasına və öz yerini tutmasına təkan verən mühüm siyasi-hüquqi və mənəvi aksiya sayır.

Bu mühüm sənəddə tariximizdə ilk dəfə olaraq Azərbaycanın XIX əsrdə zorakılıqla parçalandığından sonra azərbaycanlılara qarşı törədilmiş, bəşər tarixində görünməyən vəhşiliklərlə həyata keçirilmiş kütləvi qırğınların - soyqırımlarının rəsmən adı çəkilir, xüsusilə 1905-1907, 1918-1920, 1948-1953 və 1988-1993-cü illərdə erməni millətçi, şovinist dairələri və onları dəstəkləyən böyük dövlətlərin mürtəce qüvvələri tərəfindən bütün Zaqafqaziya miqyasında azərbaycanlı əhaliyə qarşı aparılmış etnik düşmənçilik siyasətinin kökləri açılır, "Böyük Ermənistan" xülyasını həyata keçirməyin əsas və real yolunu tarix boyu bu ərazilərin yerli sakini olmuş azərbaycanlıların məhv edilməsində, köçürülməsində, onların tarix və mədəniyyət abidələrinin dağıdılmasında, yer

adlarının dəyişdirilməsində görmüş antiazərbaycan qüvvələrin mənfur fəaliyyətinə siyasi qiymət verilir.

Azərbaycanın çar Rusiyası tərəfindən işğalını rəsmiləşdirən Gülüstan və Türkmənçay sülh müqavilələrindən sonra Azərbaycana on minlərlə ermənininin köçürülməsi, həm də din birliyi əsasında onlara yerli əhali ilə müqayisədə böyük hüquq və imtiyazların verilməsi tezliklə rus-erməni alyansı tərəfindən azərbaycanlı əhalinin hər vasitə ilə sıxışdırılmasına gətirib çıxardı. "Daşnak" və "Qnçak" kimi erməni millətçi partiyalarının fəaliyyətə başlamasından və fanatik erməni kütlələrini şovinist ideyalar ətrafında birləşdirməsindən sonra isə bu proses daha da sürətləndi. Birinci rus inqilabının başladığı 1905-ci ildə silahlanmış mütəşəkkil erməni dəstələri etnik zəmində soyqırımı kimi dəhşətli bir cinayətin Qafqazda ilk müəllifləri olmuşlar. 1905-1907-ci illərdə onlar Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda kütləvi şəkildə azərbaycanlılara divan tutmuş, şəhər və kəndləri yandırmış, uşaqları, qadınları, qocaları misilsiz qəddarlıq və vəhşiliklə öldürmüşlər. Həmin dövrdə təkcə Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarında 75 Azərbaycan kəndi yerlə-yeksan edilmiş, İrəvan və Gəncə quberniyalarında isə 200-dən artıq yaşayış məntəqəsi viran edilmişdir. Erməni vəhşiliyindən sağ qurtara bilən on minlərlə azərbaycanlı öz doğma yurd-yuvasını tərk etmək məcburiyyəti qarşısında qalmış, bununla da Azərbaycanda tarixi artıq bir əsrə yaxınlaşmaqda olan həqarətli qaçqınlıq ənənəsinin əsası qoyulmuşdur.

Ermənilərin Azərbaycan xalqına qarşı çevrilmiş soyqırımı siyasəti çar Rusiyasında mərkəzi hakimiyyətin süqut etdiyi, keçmiş imperiyanın dərəbəylik və anarxiya şəraitində yaşadığı 1918-ci ildə daha geniş vüsət almışdır. Bu dövrdəki soyqırımı daha mütəşəkkil şəkildə və daha böyük bir qəddarlıq və amansızlıqla həyata keçirilmişdi. Təkcə 1918-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda ermənilər 50 mindən çox



azərbaycanlını qətlə yetirmiş, evlərini talan etmiş, on minlərlə adamı öz yurd-yuvalarından didərgin salmışdılar. Yalnız Bakıda 30 minə yaxın soydaşımız xüsusi amansızlıqla qətlə yetirilmiş, Şamaxı qəzasının 58 kəndi dağıdılmış, 7 min nəfərədək adam, o cümlədən 1653 qadın və 965 uşaq öldürülmüş, Quba qəzasının 122 müsəlman kəndi yerlə-yeksan edilmişdi. Qarabağın dağlıq hissəsində 150-dən çox, Zəngəzur qəzasında 115 Azərbaycan kəndi vəhşicəsinə dağıdılmış, əhaliyə cinsinə və yaşına fərq qoyulmadan qəddarcasına divan tutulmuşdu. İrəvan quberniyasında 211, Qars vilayətində 92 Azərbaycan kəndi dağıdılmış, yandırılmış və talan edilmişdi. İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərindən birində göstərilir ki, qısa müddət ərzində bu tarixi Azərbaycan şəhərində və onun çevrəsində 88 kənd dağıdılmış, 1920 ev yandırılmış, 132 min azərbaycanlı məhv edilmişdir. Erməni cəza dəstələrinin törətdikləri vəhşiliklər, daşnak hakimiyyəti dövründə yürüdülən "türksüz Ermənistan" siyasəti nəticəsində İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 1916-cı ildə 375 min nəfərdən 1922-ci ildə cəmisi 70 min nəfərə enmişdir. Göründüyü kimi, qısa müddət ərzində soyqırımının və geniş miqyaslı etnik təmizləmələrin aparılması nəticəsində erməni millətçiləri qarşılarına qoyduğu məqsədə əsasən nail olmuşlar.

Şovinist ruhlu erməni millətçilərinin azərbaycanlılara qarşı soyqırımı cinayətlərinin cəzasız qalması, bu cinayətlərə heç bir siyasi-hüquqi qiymətin verilməməsi səbəbindən sovet hakimiyyəti dövründə də azərbaycanlılar onlara qarşı yeridilən antihumanist siyasətlə dəfələrlə üzləşmişlər. Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıların taleyi bu düşünülmüş, rüsvayçı siyasətin əyani təzahürüdür. "Sürünən" deportasiyalar, habelə 1948-1953 və 1988-1989-cu illərin zorakı deportasiyaları nəticəsində Ermənistan SSR-dən yarım milyona yaxın azərbaycanlı qovulmuş, onların bütün əmlakı talan edilmişdir.

1988-ci ildən başlayan erməni ekspansiyası, ermənilərin Dağlıq Qarabağda apardıqları işğalçı müharibə və etnik təmizləmə azərbaycanlıların soyqırımı qurbanlarının sayını əhəmiyyətli dərəcədə artırmışdır. Azərbaycan Respublikası ərazisinin 20 faizi işğal edilmiş, 18 mindən çox azərbaycanlı həlak olmuş, 20 mindən çox yaralanmış, 50 mindən çox əlil olmuş, 4 mindən çox əsir və itkin düşmüş, girov götürülmüş, 4 mindən çox sənaye və kənd təsərrüfatı müəssisəsi, 660 məktəb və uşaq bağçası, 250 xəstəxana və tibb müəssisəsi dağıdılmış, azərbaycanlıların doğma yurdu olan yaşadıqları 724 şəhər, kənd və qəsəbə qarət edilmiş, dağıdılmış və yandırılmışdır. Əsrin ən dəhşətli cinayətlərindən biri olan Xocalı faciəsində bütöv bir iri yaşayış məntəqəsi tamamilə yox edilmiş, 613 nəfər dinc əhali, onlardan 63 nəfəri azyaşlı uşaq, 106 nəfəri qadın vəhşicəsinə öldürülmüş, 487 nəfər şikəst olmuş, 1275 nəfər sakin - qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqirlərə və həqarətə məruz qalmışlar.

Bütün bunların nəticəsində təkcə XX əsrdə iki milyondan çox azərbaycanlı bu və ya digər şəkildə şovinist erməni dairələrinin və onların havadarlarının yürütdükləri soyqırımı siyasətinin təsirinə məruz qalmışdır. Demək olar ki, indi Azərbaycanda erməni millətçi zülmündən bu və ya başqa şəkildə zərər çəkməyən ailə yoxdur.

Azərbaycan Respublikasının Milli Məclisi əsl həqiqətin açılması və tarixi ədalətin bərpası naminə, habelə gələcəkdə azərbaycanlılara qarşı yeni-yeni soyqırımı cinayətlərinin qarşısının alınması məqsədi ilə bəyan edir ki, qətiyyətlə demokratiya yolunu tutmuş Azərbaycan dövləti erməni millətçiliyinin və onun antiazərbaycan ruhlu himayəçilərinin XIX-XX əsrlərdə dəfələrlə azərbaycanlılara qarşı soyqırımı cinayətini törətdiklərini dünya ictimaiyyətinə çatdırmaq üçün bütün mövcud üsul və vasitələrdən istifadə edəcəkdir.

Azərbaycan Respublikasının Milli Məclisi azərbaycanlılara qarşı soyqırımı cinayətlərinin cəzasız qalmasını və bu barədə beynəlxalq ictimaiyyətdə məlumatın olmamasını nəzərə alaraq Birləşmiş Millətlər Təşkilatına, Parlamentlərarası İttifaqa, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, Avropa Şurasına, Müstəqil Dövlətlər Birliyinə, başqa beynəlxalq təşkilatlara və dünya ölkələrinin parlamentlərinə və hökumətlərinə müraciət edir ki:

1. XIX-XX əsrlərdə erməni millətçiliyinin və onun havadarlarının azərbaycanlılara qarşı törətdikləri soyqırımı cinayətini tanısınlar.
2. Gələcəkdə soyqırımı cinayətlərinin cəzasız qalmasının qarşısını almaqdan ötrü təsirli beynəlxalq hüquq mexanizmləri yaradılması işini tezliklə başa çatdırsınlar.
3. Azərbaycanlılara qarşı yeni soyqırımı cinayətlərinə yol verilməməsi üçün Ermənistan - Azərbaycan münaqişəsinin ATƏT-in Minsk qrupu çərçivəsində dinc yolla ədalətli həll olunmasına yardım etsinlər.

**(Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 1998-ci il 31 mart tarixli iclasında qəbul olunmuşdur.)**

# 1999-cu İL MARTIN 31-də AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİNDƏ AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜNƏ HƏSR EDİLMİŞ

# SEMİNAR-SİMPOZİUMUN MATERİALLARI

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN SƏDRİ MURTUZ ƏLƏSGƏROVUN GİRİŞ NİTQİ

Hörmətli deputatlar!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Milli Məclisin binasında azərbaycanlıların soyqırımı gününə həsr edilmiş seminar-simpoziumu keçirməkdən məqsədimiz azərbaycanlıların soyqırımı haqqında geniş məlumat mübadiləsi etmək, bu məlumatları ümumiləşdirib Azərbaycan dilində çap etmək, sonra xarici dillərə çevirib dünya ictimaiyyətinə çatdırmaqdan ibarətdir.

Ötən il martın 26-da möhtərəm Prezidentimiz cənab Heydər Əliyevin fərmanı ilə 31 mart azərbaycanlıların soyqırımı günü elan edilmişdir. Bu fərmanda, eləcə də soyqırımı günü ilə əlaqədar möhtərəm Prezidentimizin Azərbaycan xalqına bu il 30 mart tarixli müraciətində, fərmanın icrası ilə bağlı tədbirlər planında bu işin mütəmadi davam etdirilməsi qarşıya vəzifə kimi qoyulmuşdur. Biz iki əsr ərzində Azərbaycanın ərazisində ermənilərin azərbaycanlılara qarşı soyqırımının nəticələri, əhalinin kütləvi şəkildə qırılması və müsibətlərə düçar olması barədə tarixi faktları



açıqlayıb dünyaya göstərməliyik. Cənab Prezidentin ötən il imzaladığı fərmandan sonra dekabrın 31-də Milli Məclisin xüsusi iclası keçirildi. Azərbaycanlıların soyqırımına həsr olunmuş həmin iclasda Avropa Şurası Parlament Assambleyasının Hüquq məsələləri və insan hüquqları komitəsinin İnsan hüquqları üzrə yardımçı komissiyasının üzvləri - Türkiyənin, İsveçrənin, Belçikanın, Hollandiyanın, İtaliyanın, Polşanın və başqa ölkələrin parlament üzvləri, habelə Türkiyənin Kars vilayətinin nümayəndə heyəti iştirak edirdilər.

Biz o vaxt dünya parlamentlərinə, dünyanın nüfuzlu beynəlxalq təşkilatlarına xüsusi müraciət qəbul etdik. O müraciətdə bəyan edildi ki, Azərbaycan xalqı uzun illər ərzində erməni quldurlarının, millətçilərinin soyqırımına məruz qalmışdır.

Bu soyqırımı təxminən 200 il ərzində davam edib. Ötən əsrin başlanğıcında - 1813-cü ildə Gülüstan, 1828-ci ildə Türkmənçay müqavilələrindən sonra Azərbaycanın parçalanması prosesi başlandı. On minlərlə erməni xaricdən köçürülüb Azərbaycana gətirildi. Onlar Naxçıvanda, İrəvan quberniyasında, Qarabağda yerləşdirildi. Azərbaycan ərazilərinə göz dikən, “böyük Ermənistan” xülyası ilə yaşayan ermənilərin azərbaycanlılara qarşı soyqırımı da bununla başlandı. Böyük dövlətlərin köməyinə arxalanan erməni quldurları tədricən Azərbaycanın İrəvan mahalını azərbaycanlılardan təmizlədilər. Rəsmi məlumata görə, 1916-cı ildə İrəvanda yarım milyona qədər azərbaycanlı yaşayırdı. Beşaltı il ərzində azərbaycanlı əhalinin sayı 70 minə endirildi. Həmin ərazidən azərbaycanlıları kütləvi şəkildə köçürdülər, qətlə yetirdilər, amansız soyqırımına məruz qoydular. Sonrakı illərdə də — 1905-1907, 1918-1920, 1948-1953 və 1988-1990-cı illərdə azərbaycanlıların soyqırımı siyasəti planlı, ardıcıl şəkildə həyata keçirildi.

Mən Bakı qırğınını sizin yadınıza salmaq istəyirəm. 1918-ci ilin mart hadisələri zamanı üç gün ərzində Bakıda

17 min azərbaycanlı qətlə yetirildi. Bakıda, habelə Azərbaycanın bir sıra bölgələrində törədilən cinayətlər nəticəsində 50 mindən çox azərbaycanlı həlak oldu. Qubada, Xaçmazda, Ağsuda, Şamaxıda, Lənkəranda, Muğanda bu cür faciələr baş verdi. Təəssüf ki, biz bunlara göz yumduq, tarixin ibrət dərslərindən nəticə çıxarmadıq.

1948-1953 və 1988-1989-cu illərdə Ermənistandan təxminən yarım milyondan çox azərbaycanlı qovuldu, deportasiyaya məruz qaldı. Ən acılı, ağır vaxt 1988-ci ilə təsadüf edir. M.S. Qorbaçovun yeritdiyi erməniпərəst siyasət nəticəsində torpaqlarımızın işğalının yeni mərhələsi başlandı və bu dəfə Qarabağa qarşı Rusiyanın köməyi ilə aparılan siyasət Xocalı faciəsinə gətirib çıxardı. 1992-ci ilin fevral ayında 7 min əhalisi olan bu Azərbaycan şəhəri yerlə-yeksan edildi. Uşaqlar, qadınlar, qocalar vəhşicəsinə qətlə yetirildi, yüzlərlə insan şikəst edildi, 1275 sakin əsir aparılaraq dünyanın heç bir yerində görünməyən zülmə, təhqirlərə və həqarətə məruz qaldı.

Bizim bugünkü toplantımız gələcək fəaliyyətimiz üçün əsas olmalıdır. Çalışmalıyıq ki, erməni millətçilərinin cinayətlərini, vəhşiliklərini bütün dünyaya göstərək. Biz seminar-simpoziumun materiallarını çap etdirib dünya ölkələrinin parlamentlərinə, habelə beynəlxalq təşkilatlara göndərəcəyik.

Biz tarixin ibrət dərslərindən nəticə çıxarmalıyıq. İki əsr ərzində azərbaycanlılara qarşı törədilən soyqırımlarından gələcək nəsillər də xəbərdar olmalıdırlar. Möhtərəm Prezidentimizin fərmanı, Azərbaycan xalqına müraciəti bizi bir daha ona səsləyir ki, ermənilərə qarşı uydurma soyqırımına cavab olaraq həqiqi soyqırımının köklərini açıb bütün dünyanı bu məsələdən agah edək.



Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ YANINDA BAŞ ARXİV İDARƏSİNİN RƏİSİ ATAXAN PAŞAYEVİN ÇIXIŞI

Hələ IV əsrdə öz dövlətçiliklərini itirmiş ermənilər o vaxtdan başlayaraq, təxminən 1500 ilə yaxın bir dövrdə dövlətçiliklərini bərpa etməyə çalışırdılar. Lakin onlar heç vaxt buna müvəffəq ola bilməmişdilər. Vaxtilə Bizans imperiyasına qatılmış ermənilərin nə cür millət olduğu artıq bizanslılara məlum idi. Ermənilər bir milli qurum kimi, demək olar, aradan çıxmaq üzrə idilər. Əgər XI əsrdə türklər Anadoluya gəlməsəydilər, belə də olacaqdı. Maraqlıdır ki, erməni mənbələrində də bu məsələlər çox geniş əks olunmuşdur. Həmin mənbələrdə göstərilir ki, ermənilərin bir millət kimi formalaşmasına türklərin böyük köməyi olmuşdur. Türklər Anadolunu tutduqdan sonra erməniləri bütün hərbi mükəlləfiyyətlərdən azad etdilər. Öz məktəblərini açmaqda, kilsələrini yaratmaqda, öz dillərini saxlamaqda və bu kimi başqa məsələlərdə ermənilərə geniş hüquqlar verildi. Ermənilər ticarət məsələlərində səriştəli olduqlarına görə tez bir zamanda Türkiyədə əvvəl ticarəti, sonra isə iqtisadiyyatı öz əllərinə almağa başladılar. Tezliklə onlar öz xislətini göstərib Türkiyəyə qarşı çıxdılar. Osmanlı Türkiyəsinin əraziləri hesabına özlərinin "böyük Ermənistan" dövlətini yaratmaq xülyasına düşdülər. Bunun üçün onlar əvvəlcə Avropa dövlətlərinə müraciət etdilər. Ancaq bundan bir şey hasil edə bilmədiklərini görüb Rusiyaya üz tutdular.

Çar I Pyotrun cənub istiqamətində yürüş ideyalarından, cənub dənizlərini ələ keçirmək niyyətlərindən ermənilər məharətlə istifadə etdilər. Qeyd etmək lazımdır ki, rusların Qafqaza gəlməsində ermənilərin çox böyük xidmətləri olub. Rusiya-İran, Rusiya-Türkiyə müharibələrində ermənilər ruslara hər vasitə ilə kömək etdilər və bunun müqabilində

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

ruslardan istədiklərini ala bildilər. Çar ordusunun Türkiyə ərazisində işğal etdikləri kəndlərdə, qəsəbələrdə, şəhərlərdə hakimiyyət ermənilərə verildi. Bundan istifadə edən ermənilər türklərə qarşı, sözün əsl mənasında, soyqırımı siyasəti yeritməyə başladılar.

XIX əsrin əvvəllərində Rusiya ilə Türkiyə, habelə İran arasında sülh müqavilələri bağlandıqdan sonra Türkiyədən 86 min, İrandan isə 40 min erməni bizim ərazilərə, indi Ermənistan adlandırılan Qərbi Azərbaycan torpaqlarına köçürüldü. İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində yerləşdirilən ermənilər üçün bir vilayət də yaradıldı. Ancaq ruslar, o cümlədən ermənilərin Qafqaza gəlməsində böyük rol oynamış A.Qriboyedov sonralar dəfələrlə ermənilərin xilqətində satqınlıq olduğunu qeyd etmişlər. Görünür, onlar ermənilərin başlıca məqsədlərinin nə olduğunu anlamışlar. Ona görə də 1846-ci ildə quberniya üsul-idarəsinə keçilərkən erməni vilayəti ləğv edilmişdir.

XIX əsrin əvvəllərində Qafqaza gəlmiş ermənilərin bu günə qədər Qafqazda yeritdiyi siyasəti iki mərhələyə bölmək olar: XIX əsrin 20-30-cu illərindən 80-90-cı illərinə qədər olan tarixi dövrdə Azərbaycan ərazilərində öz yerlərini bərkitmək, XIX əsrin 90-cı illərindən başlayaraq Türkiyəyə və Azərbaycana qarşı ərazi iddiaları irəli sürmək.

Bir məsələ də çox maraqlıdır. Çar hakimiyyət orqanlarının nümayəndələri də öz məktublarında dəfələrlə göstərmişlər ki, harada ermənilər azlıq təşkil edirlər, kimlər istəsələr, necə istəsələr, həmin adamlara xidmət eləməyə razıdırlar. Harada ki ermənilər çoxluq təşkil edirlər, başqa millətlərə, başqa xalqlara qarşı dünyada heç kəsin ağlına gəlməyən vəhşilikləri törətməyə hazır olurlar.

Qafqazda özlərinə yer etdikdən sonra ermənilər 1887-ci ildə Qnçak partiyasını, 1890-cı ildə isə Daşnaksütyun partiyasını yaratdılar. Həmin vaxtdan onların ərazi iddiaları sistemli surətdə davam etdirildi. Osmanlı imperiyasının şərq əyalətlərində, habelə Qafqazda türklərin və azərbaycanlıların yaşadıqları ərazidə özlərinin "böyük Ermənistan" xülyasını həyata keçirmək üçün ermənilər hər cür çirkin üsullara əl atdılar.



1905-1906-cı illərdə onlar Bakıda qırğın törətdilər. Bu qırğından sonra Yelizavetpol qubernatoru Qafqaz canişininə yazdığı məktublardan birində göstərirdi ki, ermənilər şəraitdən istifadə edərək Azərbaycanın ərazisində, müsəlmanlarla birlikdə yaşadıqları yerlərdə sərhədlər yaratmağa nail olmuşlar. Bəzi yerlərdə isə yerli müsəlmanları qovub çıxararaq İran və Türkiyədən gələn erməniləri yerləşdirməyə başlamışlar. 1906-cı ildə İ.Vorontsov-Daşkovun sədrliyi ilə azərbaycanlı-erməni nümayəndələrinin görüşündə barışıq məsələləri müzakirə olundu. Bir məsələni xüsusi qeyd etmək istəyirəm. İ.Vorontsov-Daşkov iclası açanda demişdi ki, gəlin, günahkar kimdir, onu axtarmayaq. Maraqlıdır ki, 1988-ci ildə keçmiş SSRİ-nin rəhbəri M.S.Qorbaçov da iclası açanda eyni sözləri demişdi. Ermənilər həmişə bu işin səbəbkarı olsalar da, onlar axırda sudan quru çıxardılıblar.

Birinci dünya müharibəsi ermənilərə öz dövlətçilik ideyalarını həyata keçirmək üçün əlverişli şərait yaratdı. Bu müharibədə Türkiyənin iştirak etməsi və Şərq cəbhəsinin açılması ermənilərin əl-qol açmasına səbəb oldu. Şərq cəbhəsində olan rus qoşunlarının arasında çoxlu erməni batalyonları, hətta erməni diviziyaları türklərə qarşı vuruşurdular. Tarixdən məlumdur ki, hər bir dövlət müharibə zamanı onun siyasətinə qarşı çıxan əhalini ölkənin müharibə gedən yerindən başqa yerinə köçürür. Osmanlı hökuməti rəhbərliyinin dövlətə qarşı loyal mövqe tutmayan, düşmənlə əlbir hərəkət edən erməni əhalisini cəbhə xətti yaxınlığından, yəni Şərqi Anadoludan imperiyanın başqa yerlərinə köçürməsi bir neçə istiqamətdə döyüş əməliyyatları aparan dövlətin təbii özünümüdafiə tədbiri idi. Lakin ermənilər bunu soyqırımı siyasəti kimi qələmə verərək bütün dünyada türklərə qarşı geniş təbliğat kampaniyasına başladılar. Özü də bu kampaniya indi də davam etdirilir.

Rusiyada çarizmin devrilməsi və oktyabr inqilabının qələbəsi ermənilərin öz dövlətini yaratmaq ideyasına rəvac verdi. Sovet Rusiyası müharibədən çıxdığı vaxt Şərq cəbhəsində olan əsgərlərinin əksəriyyəti ermənilərdən ibarət idi. Hələ müharibə vaxtı ermənilər cəbhədə silah-sursatı oğurlayıb gizlincə Azərbaycan ərazisinə, o cümlədən Qarabağa, Şamaxıya gətirib yığırdılar. V.Lenin S.Şaumyanı Qafqaza komissar təyin etdikdən sonra, o, Tiflisə getdi, lakin getdiyi gün də Tiflisdən qovuldu. Bakıda isə S.Şaumyanı çox yaxşı qarşılayıb xalq deputatları sovetinin sədri seçdilər. Öz mövqeyindən istifadə edən Şaumyan cəbhədən Bakıya qayıdan erməni-daşnak dəstələrinin tərksilah edilməsinə razılıq vermədi. 1918-ci ilin mart hadisələrində azərbaycanlılara qarşı vuruşanlar da həmin dəstələr olmuşdur. Şaumyanın tabeliyində 6 min, daşnakların tabeliyində isə 4 min 600 əsgər və zabit var idi. Çox maraqlıdır ki, 1990-cı ilin yanvarında Bakıya yeridilən sovet ordusu əsgərlərinin də 70-80 faizi ermənilərdən ibarət idi. 1918-ci ildə ermənilər Bakını ələ keçirməyə şərait yarandığını görərək qırğın törətmək üçün bəhanə axtarmağa başladılar. Uzun müddət danışıqlar getdi. Azərbaycanlılar ermənilərlə hərbi münaqişəyə girmək istəmirdilər.

Nəhayət, Zeynalabdin Tağıyevin oğlunun təsadüfi gülldən ölməsi nəticəsində ermənilər axtardıqları bəhanəni tapa bildilər. Onlar Z.Tağıyevin oğlunu Bakıda dəfn edib geri qayıdan müsəlman diviziyası nümayəndələrinin tərksilah olması haqqında göstəriş verdilər, diviziya nümayəndələri isə silahlarını təhvil verməyə razı olmadı. Bunu əllərində dəstavüz edən ermənilər Bakıda azərbaycanlıları kütləvi surətdə qırmağa başladılar. Eyni zamanda Qarabağ bölgəsində, Azərbaycanın digər bölgələrində ermənilər azərbaycanlıların üzərinə hücuma keçdilər.

Bizim arxivdə o vaxt təxminən 17-18 yaşında olmuş Məmməd Muradzadə adlı bir gəncin "Mart hadiseyi-əliməsi", yəni "Mart ələmli hadisələri" adlı kitabçası



saxlanılır. 1919-cu ildə nəşr olunmuş bu kitabçanı səhifələdikcə adamın ürəyi ağrıyır. Müəllif özünün şahid olduğu hadisələri yanıqlı bir dillə təsvir etmişdir. Əvvəlcə ermənilər onun atasını və əmisini öldürür, sonra qohumlarını qırmağa başlayırlar. İki qardaşı ilə birlikdə onu bir yəhudi öz evində qoruyub saxlayır. Barışıq elan edildikdən sonra aprel ayının 1-də o, anasını axtara-axtara Mayılov teatrına gəlir. Teatrdan çıxan adamların arasında anasını tapa bilir. Müəllif yazır ki, anamın arxasınca gedəndə küçənin hər tərəfində ermənilər dayanmışdı. Deyirdilər: "Nə oldu? İndi Qafqaz sizinki oldu, ya yox?" Bakıda azlıq təşkil edən ermənilərin bu cür tənələrinə dözmək mümkün deyildi. Bakıda ermənilər elə bir şərait yaratmışdı ki, çox adam heç ölülərini tapa bilmirdi. Günahsız azərbaycanlıların qanlarından küçələrdə gölməçələr əmələ gəlmişdi. Daha sonra müəllif ermənilərin bu azğınlığında, təsvirə gəlməyən vəhşiliklərində bizim özümüzün də günahkar olduğumuzu, həmişə ermənilərə inandığımızı, onların fitvalarına uyduğumuzu qeyd edir.

Məlum məsələdir ki, erməni qatillərinə Şaumyan rəhbərlik edirdi. Bakı hadisələri ilə bir vaxtda ermənilər Şamaxıda da dəhşətli cinayətlər törətdilər. Özü də ermənilər Şamaxıda qırdıqları qədər insanı heç yerdə qırmayıblar. Şamaxının özünü yerlə-yeksan ediblər, Şamaxıdan, demək olar, heç bir əsər-əlamət qoymayıblar, Şamaxı qəzasındakı 120 kənddən 86-sını tamamilə dağıdıblar. Bizim arxivlərdə, fövqəladə təhqiqat komissiyasının hazırladığı materiallarda Şamaxıda hansı kənddən nə qədər adamın qırıldığı göstərilir. 53 kənddə öldürülən azərbaycanlıların sayı 10 minə yaxınlaşırdı, əraziyə 336 milyon manatdan çox ziyan vurulmuşdu. Şamaxının özündə isə öldürülənlərin dəqiq sayı müəyyən edilməmişdir. 1920-ci ildən sonra mühacir ədəbiyyatında müxtəlif rəqəmlər göstərilir. Öldürülən azərbaycanlıların sayının bir mənbədə 12 min nəfər, digər bir mənbədə isə 17 min nəfər olduğu qeyd edilmişdir.

Şamaxıda elə evlər var idi ki, sakinlərinin hamısı güllələnmişdi.

Şamaxıdan sonra erməni quldurları Quba istiqamətində hərəkət etmişlər. S.Şaumyanın tapşırığı ilə bolşevik Q.Korqanovun daşnak Amazaspın başçılığı ilə göndərdiyi 2 min nəfərlik erməni ordusu aprelin 10-dək Qubada qırğın törətmiş, minlərlə azərbaycanlını qətlə yetirmişlər.

Bundan sonra ermənilər Zəngəzurda, Qarabağda azərbaycanlılara qarşı görünməmiş vəhşiliklər törədirlər. Hələ 1918-ci ilin oktyabr-noyabrına qədər Zəngəzurda ermənilər 10 min nəfəri qətlə yetirmiş, onlarca azərbaycanlı kəndini dağıtmışdılar. Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra onun qəbul etdiyi ilk qərarlardan biri də Birinci dünya müharibəsi zamanı azərbaycanlılara qarşı törədilmiş cinayətlərin araşdırılması üzrə xüsusi fövqəladə təhqiqat komissiyasının yaradılması haqqında olmuşdur. 1918-ci il avqustun 31-də Ələkbər bəy Xasməmmədovun rəhbərliyi ilə belə bir komissiya yaradılır və geniş fəaliyyətə başlayır. Az sonra komissiya Parisdə olan Azərbaycan nümayəndə heyəti üçün 6 cilddən ibarət təhqiqat materialları və 95 fotoşəkil göndərir. Təəssüf ki, həmin materiallar və fotoşəkillər qalmamışdır. Fövqəladə təhqiqat komissiyası öz fəaliyyəti dövründə ümumi həcmi 3500 vərəqdən artıq olan 36 cildlik təhqiqat materialları hazırlayıb. Bu materialların əksəriyyəti indi bizim arxivlərdə saxlanılır.

Quba hadisələrindən sonra həmin şəhərin rəisi Əlibəyov A.Caparidzenin və S.Şaumyanın qəbulunda olur. Öz izahatında o deyir, mən bu məsələlərlə əlaqədar geniş məruzə ilə əvvəl A.Caparidzenin yanında oldum. O bu məsələyə çox ciddi münasibət bəslədi. Ancaq S.Şaumyana məruzə edəndə rişxəndlə dedi ki, nə olub, 5-6 müsəlman öldürülüb, bu qədər hay-küy qaldırırsınız.

Fövqəladə təhqiqat komissiyası Azərbaycanın müxtəlif qəzalarında törədilmiş qırğınlarda təqsiri olan ermənilərin cinayət məsuliyyətinə cəlb edilməsi haqqında sənədlər



hazırlamış, lakin 1920-ci ilin yanvarında Paris sülh konfransında Azərbaycanın de-fakto tanınması ilə əlaqədar Cümhuriyyət Parlamentinin elan etdiyi amnistiyaya görə milli münasibətlər zəminində baş vermiş hadisələr üstündə təqiblər dayandırılmışdır. Zaqafqaziyada sovet hakimiyyətinin qələbəsi isə ermənilərin Azərbaycan ərazilərini özününküləşdirməsini təmin etmək yolunda geniş imkanlar açdı.

Sovet hakimiyyəti illərində ermənilərin Azərbaycan və azərbaycanlılara qarşı siyasətinin iki əsas məqsədi olub: indiki Ermənistan ərazisindən azərbaycanlıları hər vasitə ilə sıxışdırıb çıxarmaq və Azərbaycan əraziləri hesabına öz torpaqlarını genişləndirmək. Həm də onlar bu məqsədlərini həyata keçirə biliblər.

Bizim bütün bəlalarımız onunla bağlıdır ki, milli faciələrimizi tez unuduruq. 1918-ci ilin mart hadisələrini və ondan sonrakı hadisələri elə yaddan çıxarmışıq ki, guya heç qırğın olmayıbdır. Demək istəyirəm ki, xalqımızı yeni fəlakətlərdən xilas etmək üçün unutqanlıqdan birdəfəlik yaxa qurtarmalıyıq.

Bu mənada möhtərəm Prezidentimiz Heydər Əliyevin 1997-ci il 18 dekabr tarixli və 1998-ci il 26 mart tarixli fərmanlarının çox böyük əhəmiyyəti vardır. Bu fərmanlar bizim üçün istiqamətverici sənədlərdir, bundan sonra görəcəyimiz işlərin hərəkət istiqamətlərinin hamısını əhatə edir. Elə bilirəm ki, qarşıda duran ən mühüm vəzifələrimizdən biri azərbaycanlıların düçar olduğu faciələr barəsində məlumatları dünya xalqlarına çatdırmaqdan, ermənilərin əsl simasını hamıya göstərməkdən ibarətdir.

## "AZƏRBAYCAN ENSİKLOPEDİYASI" NƏŞRİYYAT-POLİQRAFİYA BİRLİYİNİN BAŞ DİREKTORU İSMAYIL VƏLİYEVİN ÇIXIŞI

Hörmətli sədr, hörmətli məclis iştirakçıları!

Bu gün matəm günü, Azərbaycan xalqının tarixinin ən ağır faciəsinin yad edilməsi günüdür. Mən ümidvaram ki, belə tədbirlər təkcə Milli Məclisdə deyil, Azərbaycanın bütün təşkilatlarında hər il müntəzəm keçiriləcəkdir. Bu, bizim unudulmuş tariximizin yaddaşlara yenidən yazılması, xalqa öz tarixinin tanıdılması baxımından olduqca böyük əhəmiyyətə malikdir.

Uzun müddət xalqımızın tarixi yazılmayıb, daha doğrusu, düzgün yazılmasına imkan verilməyib. Azərbaycan xalqının tarixi saxtalaşdırılıb. Başımıza gətirilən qanlı faciələr barədə tarix kitablarında və mövcud ədəbiyyatda sənədli məlumatlar azdır. Arxivlərdə olan sənədlər isə ancaq tədqiqatçı alimlərə məlumdur, geniş xalq kütləsinin isə bunlardan xəbəri yoxdur.

Bir elm adamı kimi, naşir kimi mən kitabların nəşr səviyyəsindən olduqca narazıyam. Bu mövzuda əsərlər az yazılır və geniş yayılmır. Yazan da bizik, oxuyan da bizik. Bu ciddi məsələyə dair çap olunmuş kitablar başqa dillərə tərcümə olunub dünya ictimaiyyətinə çatdırılmalıdır. Soyqırımı ilə bağlı hadisələrin öyrənilməsi həm milli, həm də bəşəri əhəmiyyət daşıyır. Ona görə də bu, həm elmimiz üçün, həm də siyasətimiz üçün olduqca vacibdir. Bunun tarixi, siyasi, ideoloji və hüquqi əhəmiyyəti vardır.

Bu məsələlərin öyrənilməsinin tarixi baxımdan əhəmiyyəti ondan ibarətdir ki, indiyə qədərki elmi və ictimai ədəbiyyatda millətimizin soyqırımı və deportasiyası ilə bağlı məsələlər öz əksini tapmamışdır. Sovet ideologiyası Rusiyanın yaxından iştirakı ilə törədilmiş bu faciələrin tarixdə əks etdirilməsinə maraqlı deyildi və həm də bu onun



antihumanist milli siyasətinin ifşası demək idi. Törədilmiş milli qırğınların səbəbləri, təşkilatçıları və iştirakçıları da ona görə uzun müddət xalqdan gizlədilmişdir. Bütün bunlar isə xalqa öz tarixini unutdurmağa yönəldilmişdi. Bu da öz növbəsində gələcəkdə baş verəcək yeni belə hadisələrdə əhalinin sayıqlığının itirilməsinə gətirib çıxarırdı.

Məsələnin siyasi baxımdan əhəmiyyəti də olduqca böyükdür. Bu, Azərbaycanı müstəqil dövlət kimi məhv etmək, əhalisini qırmaq və qovmaqla ərazisinə sahib çıxmaq kimi məkrli, istilaçılıq siyasətinin tərkib hissəsi kimi öyrənilməlidir. Bütün Qafqazı türklərdən və müsəlmanlardan təmizləmək məqsədilə həyata keçirilən imperialist siyasəti təəssüf ki, bu gün də lazımi səviyyədə, tarixdə olduğu kimi tədqiq edilib xalqa çatdırılmamışdır. Zəngin tarixi faktlar və hadisələr isə Rusiya və digər imperialist dövlətlərin Azərbaycanı parçalamaqla bağlı təcavüzkar siyasətini sübut edir. Xalqımıza qarşı yönəldilmiş düşmənçilik siyasəti diqqətlə və dərindən öyrənilib üzə çıxarılmalıdır. Bu faktların əsaslı şəkildə tədqiq və təsdiq edilməsi məsələni beynəlxalq hüquqi təşkilatların diqqətinə çatdırmaq üçün bizə imkan yaratmalıdır. Ermənilər saxta yollarla soyqırımı təbliğatını artırmaqla beynəlxalq hüquqi vasitələrlə Türkiyə və Azərbaycan ərazilərinə sahib olmağa çalışırlar. Biz isə öz həqiqi, gerçək tariximizi bərpa etməklə xalqımızın itirilmiş hüquqlarını bərpa etməliyik. Təəssüf ki, indiki Ermənistan ərazisində azərbaycanlılara qarşı törədilmiş soyqırımı və deportasiya hadisələrinə indiyədək heç bir beynəlxalq hüquqi təşkilatda baxılmamışdır.

Məsələnin ideoloji tərəfi də bizi olduqca maraqlandırır. Xüsusilə son illər ermənilərin xarici ölkə parlamentlərinə erməni soyqırımını təsdiq etdirmək siyasətləri məsələyə ideoloji aktuallıq gətirmişdir. Azərbaycan ərazilərini ələ keçirmək üçün son yüz ildə erməni siyasi təşkilatlarının təcavüzkar siyasətinə bəraət qazandırmaq, onların Qarabağa və Qarabağ ətrafı geniş ərazilərə sahib olmaq planlarını

həyata keçirmək məqsədi ilə ermənilər soyqırımı barədə təbliğatlarını gücləndirir, böyük "hay-küylə" işğal etdikləri torpaqları azad etmək barədə tələbləri kölgələmək üçün ciddi iş aparır, uydurma kitablar, xəritələr nəşr edir, yalanlar əsasında filmlər çəkirlər. Bütün bunlar, həm də Qafqazda ermənilərin törətdikləri cinayətləri ört-basdır etmək deməkdir. Atalar məsəlində deyildiyi kimi, "oğru elə bağırır ki, doğrunun səsi eşidilmir".

Son 200 ildə 3 milyona yaxın azərbaycanlının evsiz-eşiksiz qalması, qırğınlara düçar olması, 600-ə qədər kəndin, qəsəbənin tamamilə boşaldılması, Sovet hakimiyyəti illərində azərbaycanlılara qarşı kütləvi sürgünlər tətbiq edilməsi, onların repressiyalara məruz qoyulması faktı müasir ideoloji sistemdə lazımi səviyyədə təbliğ edilmir. Öldürülmüş günahsız insanların, dağıdılıb talan edilmiş əmlakın, boş qalmış kəndlərin və torpaqların, məhv edilmiş mədəni və tarixi abidələrin taleyini isə tarixin ümidinə buraxmaq olmaz. Beynəlxalq əhəmiyyət kəsb edən bu tarixi cinayətlər öz həqiqi tarixi-siyasi və hüquqi qiymətini almalıdır. İnsan hüquqları ilə məşğul olan təşkilatlar və mütəxəssislər bu məsələnin hüquqi tərəflərini tədqiq etməli, xalqın itirilmiş hüquqlarının bərpası yolunda ciddi işlər görməlidirlər.

Azərbaycana qarşı yeridilən düşmənçilik siyasətində ermənilər rus mətbuatından geniş istifadə edirlər. Ermənilərin soyqırımı haqqında uydurmaları dünyaya yaymaq üçün qızğın təbliğat işi bu gün də heç səngimədən davam etdirilir və biz tutarlı faktlarımızla onlara vaxtında cavab verməliyik. Təəssüf ki, indiyədək bu faciəli məsələlərə ciddi əhəmiyyət verilməmiş və acı tariximizin üzərinə qaranlıq siyasət pərdəsi çəkilmişdir.

Çox sevindirici haldır ki, 1918-ci ildən sonra bizim tariximizdə ilk dəfə olaraq, hörmətli Prezidentimiz Heydər Əliyevin imzaladığı fərmanla bu məsələ obyektiv siyasi qiymətini aldı. Həmin fərmanda bu qanlı faciələrə siyasi



qiymət verildi. İndi bütün strukturların, təbliğat aparatının, elm adamlarımızın vəzifəsi işə başlamaq və bunu mütəşəkkil, ardıcıl davam etdirməkdir. Təəssüf ki, vəziyyət o qədər də ürəkaçan deyil. Azərbaycanlıların soyqırımı, deportasiyası ilə bağlı kitabların, lazımi materialların çapı xeyli çətinlik yaradır. Digər tərəfdən, çap olunan materiallar Bakı şəhərindən kənara çıxa bilmir. Hörmətli Prezidentimizin fərmanına uyğun olaraq, tarixi sənədlər və mətbu materiallar əsasında biz "Deportasiya" adlı iri həcmli bir kitab nəşr etmişik. Lakin böyük zəhmət bahasına başa gələn bu kitabı da geniş yaya, lazımi yerlərə, o cümlədən dünyanın məşhur kitabxanalarına göndərə bilmirik.

İndi bizim siyasətimizin aparıcı istiqamətlərindən biri də tarixdə baş vermiş qanlı faciələrə həm də elmi qiymət vermək və onu beynəlxalq siyasətimizin əsas amillərindən birinə çevirməkdir. Hazırda Azərbaycanda elə bir qurum yoxdur ki, erməni və rus mətbuatında əleyhimizə yönəldilmiş təbliğatı ardıcıl olaraq təhlil etsin və ona vaxtında cavab versin.

200 il ərzində Azərbaycan xalqının başına gətirilmiş faciələrin tarixi salnaməsi hazırlanmalıdır. Bunun üçün alimlərimizə şərait yaradılmalıdır. Moskvanın, Sankt-Peterburqun, Tbilisinin, Yerevanın, eyni zamanda Avropa ölkələrinin arxivlərində çox zəngin materiallar - məqalələr, teleqramlar, hərbi və məxfi raportlar, ezamiyyə hesabatları vardır. Həmin materialları əldə etmək üçün vəsait lazımdır. Bu işlə məşğul olan alimlər qrupu ayrılmalıdır və biz bu məsələləri ardıcıl, sistemli şəkildə öyrənməliyik. İndi "Deportasiya" kitabının ikinci hissəsini çapa hazırlayırıq. Bu hissədə də soyqırımı məsələləri geniş əks olunacaqdır. Lakin onun hazırlanıb çap olunması xeyli vəsait tələb edir. "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi

dövlət tərəfindən maliyyələşdirilməsə də, biz bu kitabı hazırlayırıq.

Bütün bu məsələlərlə məşğul olan elmi mərkəz yaradılması olduqca vacibdir. Xarici ölkələrdə də belə kitablar çap olunur. Onlar Azərbaycan dilinə, Azərbaycan dilində nəşr edilən kitablar isə xarici dillərə çevrilib yayılmalıdır. Səyyar sərgilər hazırlanmalıdır ki, xaricə gedən nümayəndə heyətlərimiz soyqırımı ilə bağlı gerçək, tarixi faktları nümayiş etdirə bilsinlər. Eyni zamanda bu sərgilər xarici ölkələrdə olan səfirliklərimiz və beynəlxalq təşkilatlar vasitəsilə də yayılmalı, Azərbaycanın başına gətirilən faciələr barəsində dünya ölkələrinin mətbuatı vasitəsilə daim məlumat verilməlidir.

"Azərbaycan Ensiklopediyası" Azərbaycan tarixinin qaranlıq səhifələrinə, o cümlədən soyqırımına və deportasiya məsələlərinə həsr olunmuş təxminən 100 çap vərəqi həcmində kitabı nəşrə hazırlayıb. Milli Məclis onun çapına kömək etsəydi, həmin kitab tezliklə nəşr olunardı.

Ümumiyyətlə, biz düşmən təbliğatına qarşı ideoloji mübarizəni gücləndirməliyik. İndiki Ermənistan ərazisindən illərlə qovulmuş, təcavüzə məruz qalmış, kütləvi şəkildə qırılmış vətəndaşlarımızın hüquqlarının müdafiəsi məsələsini parlament səviyyəsində beynəlxalq təşkilatlar qarşısında ardıcıl surətdə qaldırmalıyıq. Dövlət siyasətimizin məqsədlərindən biri də bu olmalıdır ki, kütləvi surətdə öz yurdlarından qovulmuş insanlarımız beynəlxalq hüquq normalarına əsasən vətənlərinə, tarixi torpaqlarına qayıda bilsinlər. Xalqın taleyi ilə bağlı məsələlərdə hamımız bütün səylərimizi və imkanlarımızı birləşdirməliyik.



## M.Ə.RƏSULZADƏ ADINA BAKI DÖVLƏT UNİVERSİTETİ TARİX FAKÜLTƏSİNİN DEKANI, ƏMƏKDAR ELM XADİMİ, TARİX ELMLƏRİ DOKTORU, PROFESSOR YAQUB MAHMUDOVUN ÇIXIŞI

31 mart xalqımızın, türk dünyasının, bütövlükdə islam aləminin ən ağır matəm günlərindən biridir. Erməni cəlladlarının Azərbaycan xalqına qarşı törətdiyi bu dəhşətli soyqırımı, ümumiyyətlə, dünya tarixində analoqu olmayan vəhşilik aktıdır. S.Şaumyan başda olmaqla daşnak-bolşevik güruhunun əvvəlcədən planlaşdırılaraq, düşünülmüş şəkildə 1918-ci ilin martında həyata keçirmiş olduğu soyqırımı məsələlərinə dair biz çox toplantılar keçirmişik. Yığışıb vəziyyəti dəfələrlə təhlil etmişik, soyqırımı ilə bağlı yeni-yeni faktları üzə çıxarmağa səy göstərmişik. Azərbaycan xalqının erməni cəlladları tərəfindən nə qədər dəhşətli faciələrə məruz qoyulduğu barədə əldə etdiyimiz məlumatları bugünkü nəsillərə çatdırmağa çalışmışıq. Lakin min-min acı təəssüflər ki, hər dəfə unutqanlığımız bizə qalib gəlib...

Bu gün, bu toplantıda bir daha təkrar etmək istərdim: düşmənin bir adı var - "qarı düşmən"! Bu düşmən Dədə Qorquddan üzü bəri bizimlə düşmənçilik edə-edə gəlir. Məqam əlinə düşən kimi, bizə dərhal zərbə vuran bu məkrli düşmənə müqavimət göstərə bilmək üçün onun iç üzünə bələd olmaq lazımdır. O, son dərəcə mütəşəkkil düşməndir, fürsəti əldən qaçırmayan təhlükəli düşməndir!

Azərbaycanın əzəli torpaqlarını ələ keçirmək üçün ermənilər müntəzəm olaraq, sistemli şəkildə, düşünülmüş formada, bütün üsullardan istifadə edərək, daim xalqımıza qarşı qırğınlar törədiblər. Nəhayət, 1918-ci ildə bolşeviklərlə birləşərək, Bakıda hakimiyyəti ələ keçirdikdən sonra Azərbaycan xalqını məhv olmaq təhlükəsi ilə üz-üzə qoyub-

lar. Onlar təkcə bizim xalqımıza qarşı deyil, ümumiyyətlə, türk dünyasına qarşı dəhşətli cinayətlər törədiblər.

Birinci Dünya müharibəsi zamanı çar generalları tərəfindən silahlandırılan erməni quldur dəstələrinin Şərqi Anadoluda törətdikləri kütləvi qırğınları, qanlı faciələri yada salaq. Türk alimlərinin apardıqları arxeoloji qazıntılar zamanı minlərlə türkün, o cümlədən uşaqların, qadınların, qocaların quyulara, çala-çuxurlara doldurulub diri-diri basdırıldığı hallar aşkara çıxarılır. Nə yaxşı ki, qardaş ölkənin alimləri bu qazıntılar barədə məlumatları dünyanın hər yerinə yayır, erməni vəhşiliyini, türklərə qarşı soyqırımı vəhşiliklərini faktlarla, sənədlərlə sübuta yetirirlər! Lakin gözlənilən nəticələr əldə edilirmi? Təəssüf ki, yox! Bəs səbəb nədir? Səbəb, hər şeydən əvvəl, budur ki, ermənilərin düşmənçilik təbliğatı çox güclü, özləri isə mütəşəkkildirlər. Erməni varlıları, xarici ölkələrdəki erməni lobbisi son dərəcə fəal və əlbirdir. Onlar Amerikada və başqa iri ölkələrdə keçirilən prezident seçkilərində fəal iştirak edir, dövlət adamlarını, parlament üzvlərini məharətlə ələ alırlar. Rusiyanın hərbi strukturlarının da ermənilərin əlində olması real faktdır. Fransada onlar bizim əleyhimizə, türklərə qarşı müntəzəm surətdə məsələlər qaldırırlar.

Biz nəzərə almalıyıq ki, düşmənimiz təcrübəli və zamanı qabaqlamağı bacaran düşməndir. Hələ eramızın III-IV əsrlərində hunlar Qafqazın şimalından keçib Avropaya yürüş edəndə erməni keşişləri oraya - hunların hərbi düşərgəsinə getmişdilər ki, onlara qriqorianlığı qəbul etdirsinlər və sonra gəlib hunların və qriqorianlığın köməyi ilə bütün Azərbaycan torpaqlarını ələ keçirsinlər. Sonralar Ərəb xilafətinin Qafqaz müharibələri ərəfəsində də ermənilər Bağdada elçilər göndərib xəlifə ilə sövdələşmişdilər ki, islam dinini Azərbaycanın düzən yerlərində yaysınlar, dağlıq yerlər isə qriqorianlaşdırılsın. Bu vasitələrlə onlar özlərinin qriqorianlaşdırma və erməniləşdirmə siyasətini həyata keçirməyə zaman-zaman nail olmuşlar.



Orta əsrlərdə Osmanlı imperiyası kimi qüdrətli bir dövlətə arxadan zərbə vurmaq üçün ermənilər Azərbaycan hökmdarlarına sığındılar, onların qılığına girib Avropa ölkələrinə elçi göndərildilər. Bizim hökmdarların, xüsusilə ağqoyunluların, səfəvilərin saraylarına yol tapan ermənilər türk dövlətlərini bir-birinin üstünə qaldırdılar, xristian ölkələrinin Azərbaycanda möhkəmlənməsinə yol açdılar, aranı qarışdırıb özləri üçün əlverişli şərait yaratdılar, gələcəklərinə “gün ağladılar”, Qərb dövlətləri qarşısında “hörmət” və “etibarlı müttəfiq” mövqeyi qazandılar.

İslam dünyasının içərisində daim xristian ölkələrinə xidmət göstərən ermənilər Rusiya işğalları dövründə üzlərini şimala çevirdilər. Bu dəfə öz qonşularını yeni ağalara satmağa başladılar. Rusiyanın Qafqazda işğalçılıq müharibələri ilə bağlı araşdırmalar aparanda ortaya çıxan faktlar erməni xəyanətinin, erməni xislətinin nə qədər təhlükəli olduğunu daha dərindən üzə çıxarır, insanı vahiməyə salır. Təsəvvür edin ki, işğalçı hərbi yürüşlər zamanı Rusiya qoşunları bizə daha qanlı divan tutmaq üçün, ilk növbədə, Mədətov kimi erməni generallarından istifadə edirdilər. Hər yerdən Azərbaycanın ərazisinə erməni toplayıb gətirirdilər. Kənardan erməni gətirmək mümkün olmayanda isə qriqorianlaşdırılmış albanları zorla Qarabağ ərazisinə, İrəvan ellərinə toplayıb Cənubi Qafqazda erməni dövləti yaratmaq üçün zəmin hazırlayırdılar.

Bu gün belə bir faktı da açıqlamaq yerinə düşərdi ki, xalqımızın cəlladlarından biri olan qanlı general Sisianov Azərbaycanı işğal etmək üçün ölkəmizə şimal-qərb istiqamətindən girməli idi. Ən yaxın yol Balakən-Zaqataladan keçib Bakıya gəlmək idi. Amma o zaman Gəncədən ermənilər Sisianova məktub yazdılar və xahiş etdilər ki, Gəncə istiqamətində hücum etsin. Onlar Sisianova yalvarır və əmin edirdilər ki, biz qoymayacağıq ki, Cavad xan əl-ayaq açsın. Həqiqətən də, Sisianovun Gəncə əməliyyatı

zamanı ermənilər ruslara həm Gəncənin içərisindən kəşfiyyat xarakterli məlumatlar verdilər, həm camaatın taxılını, suyunu zəhərlədilər, həm də Cavad xana içəridən zərbə vurdular. Yəni demək istəyirəm ki, bu problemlər bir günün, iki günün problemi deyil. Tarix boyu ermənilər bizə qarşı özlərinə güclü arxa axtarıblar, onların arxasında çox güclü qüvvələr durub və belə qüvvələr indi də vardır.

Bəs Cənubi Qafqazda erməni dövləti necə yarandı? Cənubi Qafqazı ələ keçirməkdən ötrü I Pyotrun dövründən başlayaraq Rusiya tərəfindən Türkiyə və İrana qarşı düşünülmüş təcavüzkarlıq siyasəti yeridildi. Qafqazda Türkiyəni zəif salmaq məqsədilə yerli türk-müsəlman əhalisinin hissə-hissə köçürülməsinə dair ermənilərin iştirakı ilə planlar hazırlandı. Bütün bu planların həyata keçirilməsində ermənilər Rusiyanın həmişə yardımçısı olublar. Əvəzində isə bolşeviklər Qafqazda qondarma erməni dövləti yaradaraq bugünkü ağır problemlərin əsasını qoydular.

XIX-XX əsrlərdə Azərbaycan xalqının başına gətirilən faciələr - qırğınlar, sürgünlər, o cümlədən 1918-ci ilin mart qırğınları, 1990-cı ilin 20 yanvar faciəsi, 1992-ci ilin Xocalı soyqırımı, Azərbaycan ərazilərinin 20 faizinin işğal edilməsi - hamısı bir məşum zəncirin həlqələridir. Bütün bu qırğınlarda, müsibətlərdə ermənilərin arxasında həmişə çar cəlladları, Rusiya hərbçiləri durublar. Məqsəd isə bir olub - ermənilərin köməyi ilə Qafqazda Rusiyanın dayaqlarını möhkəmləndirmək, Azərbaycanın azadlığına, müstəqil Azərbaycan dövlətinin yaranmasına və inkişafına yol verməmək! Bu acı, lakin real həqiqətdir. Özü də tariximizin bütün dövrlərində dəfələrlə təkrarlanmış həqiqətdir!

Beləliklə, 1918-ci ilin mart şəhidlərinin, habelə erməni cəlladlarına qarşı Vətən yolunda canından keçmiş bütün



qəhrəmanlarımızın əziz xatirəsinin yad olunduğu bu məclisdə hamınıza üz tutur və bir daha təkrar edirəm: düşmən arxalı, məkrli və güclü düşməndir. Onun qarşısında duruş gətirə bilmək üçün biz, ilk növbədə, Azərbaycanın daxilində unutqanlıq fəlsəfəsinə, unutqanlıq ideologiyasına qarşı müharibə elan etməliyik, həmrəyliyimizi möhkəmləndirməliyik! Yoxsa gələcək nəsillər bizi topa tutacaqlar. Bizim bu mücadiləmiz geniş miqyaslı bir mücadilə olmalıdır. Özü də bunu təkcə tarixçilərin öhdəsinə buraxmaq sadəlövhlük olardı...

Etiraf etmək lazımdır ki, son dövrdə xeyli işlər görülübdür və görülməkdədir. Bu işlər daha intensiv şəkildə davam etdirilməlidir. Arxiv materialları çap edilib xalqa çatdırılmalıdır. Xalqın şüurunu oyatmaq və ona aşılamaq lazımdır ki, bu gün də başımızın üstündən həmin zəhərli qılınc asılıb, Rusiyanın davakar generalları, imperiyapərəst qüvvələri o qılınca bu gün də güc verirlər. Bu gün Amerikada, Fransada və başqa ölkələrdə elə qüvvələr var ki, məmnuniyyətlə bu zəhərli qılınca - erməni təcavüzkarlarına güc verir, hər cür yardım edirlər. Yəni mütəşəkkil, güclü havadarları olan düşmənin qarşısında biz də öz mütəşəkkilliyimizi artırmalıyıq. Təkcə tarix elmi deyil, kütləvi informasiya vasitələrimiz də, incəsənətimiz də, ədəbiyyatımız da bu sahəyə xüsusi diqqət yetirməlidir. Bu işə hüquqşünaslarımız da qoşula bilərlər.

Milli Məclisin sədri hörmətli Murtuz Ələsgərov çox düzgün qeyd etdi ki, İkinci Dünya müharibəsində faşizm insanlara qarşı dünya tarixində ən qəddar üsullar tətbiq edib! Bu həqiqətdir. Lakin bu da təkzibolunmaz həqiqətdir ki, faşizmlə müqayisədə insanlara qarşı hüquq normalarına zidd olan daha qəddar, daha ağlasığmaz üsulları, daha vəhşi, daha qanlı metodları xalqımıza qarşı 1918-ci ildəki soyqırımı

zamanı məhz ermənilər tətbiq ediblər. Bu faktları ortaya çıxarmaq lazımdır.

Bizim mübarək dinimiz heç zaman təkallahlı dinlərə qarşı olmayıb, heç zaman müqəddəs kitablara qarşı olmayıb! Həzrət peyğəmbərimiz isə islamın yayıldığı dövrdə məsləhət görüb ki, kimin, hansı xalqın müqəddəs kitabı varsa, təkallahlı dini varsa, onlara toxunmayın, onlarla işiniz olmasın! Elə buna görə də islamın yayıldığı dövrdə ermənilərə heç kəs toxunmadı! Ermənilər isə Qubada, Şəkidə, Azərbaycanın hər yerində soyqırımları zamanı islamın müqəddəs kitabı olan Qurani-Kərimdən tonqallar çatıb din xadimlərimizi bu tonqallarda diri-diri yandırdılar! Hamilə qadınların bətnindən uşaqlarını çıxarıb süngüyə keçirdilər! Doğum ərəfəsində olan qadınların kürəyinə qaynayan samovar bağladılar! İçərişəhərin girəcəyindəki xəstəxananı içərisindəki xəstələrlə birlikdə yandırdılar! Uşaqlar da daxil olmaqla kişi cinsindən olan bütün azərbaycanlıları bir nəfərinə kimi qırırdılar! İkinci Dünya müharibəsi də daxil olmaqla tarixdə insana qarşı heç zaman, heç yerdə erməni vəhşiliyi qədər amansız vəhşilik görünməyib!! Demək istəyirəm ki, bütün bu faktları hüquqşünasların iştirakı ilə kitablar halında müxtəlif dillərdə nəşr edib dünyanın hər yerinə yaymaq lazımdır.

Ermənilərin soyqırımı siyasətinin məqsədi, metodları və nəticələri, bax, budur. Bəs nə üçün bütün bunları biz üstündən üç-dörd il ötəndən sonra unutduq? Ona görə ki, sovet dövründə bizim ideologiyamız saxta olub, bu ideologiyada xüsusi məqsədlər olub, boşluq olub, bu gün də boşluq var. Nə səbəbə ermənilər türklərin ünvanına yalandan bir soyqırımı əfsanəsi uydurub, dünya meydanına çıxarır, amma biz Azərbaycan xalqının soyqırımına həsr olunmuş bir abidə, soyqırımı abidəsi ucaltmırıq? Niyə bizim



şəhərlərimizdə, rayonlarımızda, kəndlərimizdə vəhşicəsinə qırılan insanlarımız barəsində məlumatlardan uşaqlarımız, yeniyetmələrimiz, gənclərimiz xəbərdar olmamalıdırlar? Niyə bu məlumatlar kitablara düşməməlidir? Nə səbəbə on mindən çox şəhidimizin uyuduğu Bakıda soyqırımı abidəsi ucaldılmasın, şəhərlərimizdə, kəndlərimizdə, qəbiristanlarımızda xatirə abidələri, lövhələri, kitabları yaradılmasın?! Və yaxud indiki Ermənistan ərazisində bütün türk toponimləri dəyişdirilibdir. Niyə Azərbaycanın ən görkəmli yerlərində bu dəyişdirilmiş yer adları kitabələr şəklində həkk olunmamalıdır? Niyə bunlar dərsliklərə düşməməlidir? Yəni bu iş hərtərəfli aparılmalıdır. Ona görə də mən bugünkü toplantımızı alqışlayıram, bu toplantıdan çox şey gözləyirəm!

Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı fərman, habelə Dədə Qorqud dastanının 1300 illiyi münasibəti ilə, Naxçıvana dövlət statusu verilməsinin 75 illiyi ilə əlaqədar verdiyi fərmanlar milli ideologiyamızın inkişafı, dövlətçiliyimizin möhkəmləndirilməsi baxımından misilsiz əhəmiyyət kəsb edir. Bu fərmanlar fəal mübarizə mövqeyinə səsləyir. Əgər biz unutqanlıqla vidalaşıb fəal mübarizə mövqeyinə çıxmasaq, dünya miqyasında sözümüzü deməsək, mütəşəkkil qüvvəyə çevrilməsək, faciələrimiz yenə təkrarlanacaq. Əgər biz möhkəm dayanmasaq, konkret addımlar atmasaq, erməni millətçilərinin vəhşiliklərini dünya ictimaiyyətinə çatdırmasaq, yeni-yeni faciələrlə üzləşməyimiz labüddür.

# AZƏRBAYCAN ELMLƏR AKADEMİYASI MİLLİ MÜNASİBƏTLƏR İNSTİTUTUNUN DİREKTORU, FİLOLOGİYA ELMLƏRİ DOKTORU, PROFESSOR VAQİF ARZUMANLININ ÇIXIŞI

Xalqımızın tarixində taleyüklü məsələlər çoxdur. Nə yaxşı ki, müstəqillik qazandığımız vaxtdan başlayaraq bu cür məsələlərə ciddi diqqət yetirilir. Bugünkü tədbirin mövzusu da son 70-80 ildə ən az öyrəndiyimiz, ən az maraq göstərdiyimiz hadisələrlə bağlıdır. Mən 1918-ci il mart qırğınlarına iki bucaq altında nəzər salmağı məsləhət bilərdim. Birincisi, 1918-ci il hadisələri kompleks şəklində geniş öyrənilməlidir. Təsadüfi deyil ki, o dövrdə Bakıda qırılmış azərbaycanlı əhalinin sayı gah 10 min, gah 12 min, gah 17 min, gah da 15 min göstərilir. Əlbəttə, bu faktlar tamamilə dəqiqləşdirilməlidir. Bəlkə daha çox azərbaycanlı qırılıb, bundan da acınacaqlı, faciəli hadisələr baş verib. Bunların hamısı bütövlükdə öyrənilməlidir. İkincisi, etiraf etməliyik ki, son 70-80 ildə bu məsələlərə çox biganə yanaşmışıq. Biz xalqımıza qarşı həyata keçirilmiş və bu gün də müxtəlif formalarda davam etdirilən deportasiya və soyqırımı hadisələrini ardıcıl araşdırmalı, bu istiqamətdə fəaliyyətimizi canlandırmalıyıq.

1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyev azərbaycanlılara qarşı törədilmiş soyqırımlarla bağlı iki mühüm fərman imzalamışdır: "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyası haqqında" və "Azərbaycanlıların soyqırımı haqqında". Hər iki sənəd son iki-üç əsr ərzində xalqımızın başına gətirilmiş faciələrə tarixi və siyasi qiymət verilməsi, bütün olub-keçənlərin obyektiv və elmi şəkildə araşdırılıb dünya ictimaiyyətinə çatdırılması, tarixi həqiqətlərin olduğu kimi öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Azərbaycanlılara qarşı aparılan soyqırımı və deportasiya siyasəti XX əsrin axırlarında Dağlıq Qarabağ hadisələri ilə davam etdirilmişdir. Xalqımıza qarşı soyqırımı siyasətinin təzahürləri son yüzillikdə daha qabarıq şəkildə özünü büruzə versə də, bu əməllərin başlanğıcı çox-çox əvvəllərə gedib çıxır. Zaman-zaman azərbaycanlıların başına gətirilən faciələrin, bəlaların kökləri daha dərindədir. Üç yüz ildən artıq bir dövrdə bu siyasət müxtəlif formalarda həyata keçirilsə də, mahiyyətcə bir məqsədə xidmət edib. Qafqazda azərbaycanlılara qarşı aparılan soyqırımı siyasəti əsasən aşağıdakı bir neçə amillə bağlı olmuşdur:

Rusların Azərbaycanın şimal torpaqlarını (Dərbənd, Quba, Bakı və s.) ələ keçirməsi;

Xəzər dənizində rusların nəzarətinin güclənməsi;

Rusiya imperiyasının Qafqazı işğal etməsi;

Rusiyadan və Ukraynadan müəyyən qisim əhalinin Azərbaycan ərazilərinə köçürülməsi;

İrandan və Türkiyədən ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi;

Rusiya imperiyasının ermənilərə himayədarlıq etməsi, rusların Qafqazda özlərinə dayaq nöqtələri axtarması;

Rusiyanın və digər fövqəldövlətlərin Qafqazın coğrafi-siyasi məkanında istənilən pilləni tuta bilməməsi;

Bölgədə nüfuz dairəsini genişləndirmək uğrunda iri dünya dövlətləri arasında mübarizənin gərginləşməsi.

Şimal istiqamətindən rus ordularının azərbaycanlılara qarşı hücum və basqınları həmişə böyük itkilər və dağıntılarla müşayiət olunmuşdur. Hələ 1668-ci ildə Don kazakı Stepan Razinin Azərbaycana hücumu zamanı ataman Sergey Krivoyun 2 min döyüşçüsü əvvəlcə Dərbəndə, sonra isə Bakıya basqınlar edərək yerli əhalidən xeyli adamı qırmış və əsir götürmüşlər. S.Razinin bütövlükdə 6 minə qədər döyüşçü ilə Bakıda və digər yerlərdə törətdiyi faciələr

ilə əlaqədar 1671-ci il iyunun 6-da ona elan olunan ölüm hökmündə belə bir fakt xüsusi vurğulanır:

"Sən canisən... Xəzər dənizi sahillərində əhalini talan etdin, xeyli adam öldürdün, bir neçə şəhəri dağıtdın, iki çarlıq arasında böyük qırğın toxumu səpdin".

"Azərbaycan tarixi" (Bakı, 1994) kitabında oxuyuruq: "XVI əsrin ortalarından etibarən Volqa-Xəzər yolu, həmçinin Azərbaycandan keçən quru ticarət yolu beynəlxalq əhəmiyyət kəsb edirdi. Bəzi Avropa ölkələri bu yoldan istifadə etməyə çalışır və Rusiyadan kömək istəyirdilər. Çünki XVII əsrin sonunda bu yol rus tacirlərinin əlinə keçmişdi. Rus dövləti də Səfəvi hakimiyyəti ilə Qərbi Avropa arasında yeganə vasitəçi olmağa çalışırdı. Bu cəhd 1667-ci ildə uğurla başa çatdı. Rusiya Qızılbaş xam ipəyini Həştərxan vasitəsilə Moskvaya, daha sonra Mərkəzi və Qərbi Avropa ölkələrinə daşımaq inhisarına yiyələnmək üçün Yeni Culfada yerləşən erməni şirkəti ilə müqavilə imzaladı. Ruslara Səfəvilərin bütün hakimiyyəti dövründə gömrüksüz ticarət etmək hüququ verildi. Şahın fərmanında yerli hakimlərə, rus tacirlərinə xüsusi ehtiram göstərmək tapşırılırdı".

1707-1709-cu illərdə İranda Rusiyanın səfiri olmuş erməni mənşəli İsrail Ori və onu müşayiət edən arximandrit Minas Vardapet Quba xanlığı ərazisində, Niyazabadda körpü tikdirmiş və onun üzərinə rus gerbi vurdurmuşdu.

Ermənilər öz mənafeləri naminə hər bir məqamdan istifadə etməyə cəhd göstərmişlər. Rusiya nümayəndə heyətinin tərkibində bu və ya başqa ölkəyə gedən hər bir erməni ən adi və kiçik fürsət tapan kimi həmin ölkədə ermənilərin xeyrinə müəyyən işlər görməyə nail olmuşdur. Bununla əlaqədar XVI əsrdən bu günə qədər yüzlərlə fakt və hadisələr mövcuddur.

Bütün dövrlərdə ermənilər öz dövlətlərini yaratmaq üçün hər cür vasitələrdən istifadə etmişlər. Onlar bütün üsullara əl ataraq Türkiyənin, Rusiyanın, İranın, SSRİ-nin və



hətta bizim Azərbaycanın müxtəlif hökumət və dövlət strukturlarında, xüsusən hərbi sahədə öz nümayəndələrini yerləşdirməyə nail olmuşlar. Keçmişdə də, bizim dövrdə də.

1721-ci ildə I Pyotr İsveçlə müharibədə qalib gəldikdən sonra öz ordusu və 274 gəmisi ilə Dərbənd istiqamətində iki yolla - həm dəniz, həm də quru yürüşə başladı. 1722-ci il iyunun 15-də Həştərxanda ikən I Pyotr öz "Manifest"ini nəşr etdirdi. Azərbaycan dilində hazırlanan bu "Manifest" xüsusi məqsədlər güdürdü.

Təxminən 200 il bundan əvvəl Rusiya çarı I Pavel bir qisim erməni əhalisinin Dərbəndə və Quba xanlığının ərazisinə köçürülməsi barədə fərman vermişdir. Həmin fərman belə adlanır: "Dərbənd və Müşkür ermənilərinin imtiyazları və sərbəst hərəkət etmək hüququ haqqında".

Qəribə də olsa, İran və Rusiya dövlətləri bütün dövrlərdə ermənilərə xüsusi imtiyazlar vermişlər. Bəzi fərmanlara diqqət yetirək.

1605-ci ildə I şah Abbas şahlığın ərazisində pərakəndə yaşayan ermənilərin yığcam halda yaşamaları üçün xüsusi ərazilər ayrılması barədə fərman vermişdir.

1707-ci ildə Rusiya Zaqafqaziyaya xüsusi yürüş etmək məqsədilə İsrail Orinin (ona Rusiya ordusunun polkovniki rütbəsi verilmişdi) rəhbərliyi altında 50 nəfərlik nümayəndə heyəti göndərmişdir.

1723-cü il 12 sentyabr tarixli müqavilə ilə Rusiya çarı I Pyotr Bakı, Quba, Dərbənd ərazilərinə ermənilərin köçürülüb gətirilməsi üçün yerlər ayrılması barədə fərman vermişdir.

1726-cı il fevralın 22-də II Yekaterina ermənilərə xüsusi mərhəmət və himayədarlıq etmək barədə fərman imzalamışdır.

1728-ci il aprelin 17-də Rusiya Nazirlər Kabineti erməni və gürcü zabitlərinin hazırlanması üçün erməni və gürcü zadəgan uşaqlarının xüsusi kadet korpusuna qəbul edilməsi haqqında qərar çıxarmışdır.

1797-ci il oktyabrın 1-də Rusiya çarının fərmanı ilə 2 min nəfər iranlı erməni məliyi Rusiya təbəəliyinə qəbul edilmişdir.

1799-cu il iyunun 3-də imperator I Pavel ermənilərin Azərbaycanın Qazax ərazisində məskunlaşmasına köməklik edilməsi barədə Kartli-Kaxetiya çarlığına xüsusi göstəriş vermişdir.

Çox qəribə də olsa, belə bir cəhəti müşahidə etmək olur ki, istər Osmanlı-Səfəvi müharibələri zamanı, istərsə də Rusiya-İran, Rusiya-Türkiyə müharibələri zamanı nəticə etibarilə hər dəfə ermənilərin mənafeyinə uyğun hadisələr baş vermiş, qərar və sərəncamlar qəbul edilmişdir.

Bu müharibələr başa çatdıqdan sonra bağlanan bütün müqavilə və razılaşmalarda bu və ya başqa şəkildə ermənilərin xeyrinə ya bir bənd, ya da bir izahlı maddə olmuşdur. Bu da sonralar Qafqazda, Türkiyədə, İranda, Rusiyada ermənilərin daha geniş əl-qol açmasına, xüsusi imtiyazlar qazanmasına imkan vermişdir.

Ermənilərin Qafqaza, xüsusən Azərbaycan ərazilərinə köçürülməsi ilk gündən yerli əhali üçün böyük problemlər yaratmışdır. Azərbaycan torpağına ayaq basdıqları andan onlar azərbaycanlılara qarşı cinayət əməlləri törətməyə başlamışlar.

İlk dəfə İrandan ermənilərin İrəvan ərazisinə köçürülməsi ilə bağlı 1519-cu ildə Rəvan bəylərbəyi Təbrizə xüsusi məktub göndərərək bildirmişdir ki, bu köçürülmənin nəticələri yeni münaqişələrə aparıb çıxaracaq, toqquşmalara, yerli



əhali üçün faciələrə səbəb olacaqdır. Sonrakı dövrlərdə baş verən hadisələr bu deyilənləri bir daha təsdiq etdi.

1828-ci il fevralın 10-da Təbriz-Tehran yolunun üstündə yerləşən Türkmənçay kəndində Rusiya-İran müqaviləsi bağlandı. Martın 20-də Rusiya hökmdarı I Nikolay bu müqaviləni təsdiq etdi və elə ertəsi gün İrəvan və Naxçıvan xanlıqlarının əraziləri əsasında yeni inzibati vahid — "erməni vilayəti" yaradıldı.

Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən İranda yaşayan ermənilərə sərbəst surətdə Rusiyanın himayəsinə keçmək hüququ verilirdi. Əslində ermənilərin Qafqaza köçürülməsinə ondan bir il əvvəl hazırlıq işləri aparılmışdı.

İrandan Azərbaycan ərazilərinə köçürülən yüzlərlə erməni ailəsi üçün yerlərdə hər cür şərait yaradılırdı. Təsadüfi deyil ki, o vaxtlar Rusiyanın İrandakı böyük elçisi A.S.Qriboyedov "Ermənilərin İrandan bizim vilayətlərə köçürülməsi haqqında qeydlər"də göstərirdi ki, ermənilərin mülkədar torpaqlarında yerləşdirilməsi, müsəlmanların yerini dar etməsi bir yana, üstəlik, onlara güzəştlər verilir. Halbuki, ziyan çəkən tərəf azərbaycanlılardır. Azərbaycanlılar özləri köçkünlərə çevrilirlər". Bütün bunların çox ağır nəticələr verəcəyini A.S.Qriboyedov qabaqcadan hiss edirdi.

1828-1829-cu illərin Rusiya-Osmanlı müharibəsindən sonra da ermənilər Türkiyədən tarixi Azərbaycan torpaqlarına köçürüldülər. Hətta bu iş üçün 1829-cu ildə Rusiya tərəfi xüsusi komitə təşkil etmiş və 12 maddəlik ümumi qaydalar müəyyənləşdirmişdi.

Bir az irəliyə gedərək belə bir təkzibolunmaz faktı xatırlatmaq istərdik ki, son üç yüz ildə azərbaycanlılara qarşı soyqırımı siyasətinin əsas səbəbkarları indiki Ermənistanda

yaşayan ermənilər və onların sələfləridir. O sələflər ki, onların hamısı vaxtilə İrandan, Türkiyədən, daha sonra Suriyadan, Yunanıstandan, Livandan, Bolqarıstandan, Rumıniyadan Qərbi Azərbaycana - indiki Ermənistana köçüb gəliblər. Məhz bu proseslərin nəticəsi olaraq 1905-1906-cı illərdə azərbaycanlılara qarşı böyük və ağlasığmaz qırğınlar baş verdi, rus və erməni-daşnak qüvvələri təkcə Qərbi Azərbaycanda deyil, Cənubi, Şimali və Şərqi Azərbaycanda da azərbaycanlılara qarşı kütləvi soyqırımı törətməyə nail oldular.

Məhz bu proseslərin davamı və ən yüksək zirvəsi kimi 1988-1990-cı illərdə Ermənistanda azərbaycanlıların kökünü kəsmək və "türksüz Ermənistan" yaratmaq məqsədilə soydaşlarımıza qarşı əsrin ən ağır və qəddar vəhşilikləri həyata keçirildi.

Azərbaycanlıların kütləvi qırğınları bütün dövrlərdə və bütün hallarda əvvəlcə deportasiya, onun ardınca isə soyqırımlarının başlanması ilə müşayiət olunmuşdur. Köçürülmələr soyqırımlarla başlanmış, soyqırımlarla da tamamlanmışdır. Bu hal xüsusən 1905-1906, 1917-1918, 1988-1990-cı illərdə dəhşətli amansızlıqlarla həyata keçirilmişdir.

Bu da bir həqiqətdir ki, azərbaycanlılara qarşı soyqırımı hadisələri üçün təkcə ermənilər deyil, həm də onların arxasında duranlar və onların havadarları da məsuliyyət daşıyırlar. Amma həqiqət gec-tez öz yerini tutur. Tarix hər şeyi öz məcrasına qoya-qoya davam edir və onun səhifələrini bicliklə yazanlar deyil, düzlüklə yazanlar və yozanlar bəzəyir, yaşadır, nəsillərdən-nəsillərə ötürürlər.

Tarix bütün dövrlərdə hamı üçün ibrət dərsi olmuşdur. O xalqlar öz istək, arzu və amallarına nail olurlar ki, onlar tarixdən lazımi ibrət dərsləri götürə bilirlər.



## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN DEPUTATI, FİLOLOGİYA ELMLƏRİ DOKTORU, PROFESSOR ŞAMİL QURBANOVUN ÇIXIŞI

Ermənilərin terror aktları 1896-cı ildən başladı. O zaman onlar İstanbul poçtxanasını partlatdılar, neçə-neçə günahsız insanı qanına qəltan etdilər. Bu hadisə bütün dünyada onlara qarşı nifrət oyatdı. Amma bu nifrət uzun sürmədi, əksinə, bir azdan erməniləri yazıq, fağır bir məxluq kimi qələmə verib onların bu terror aktına haqq qazandırdılar. Ermənilərin ağzında şirə qaldı. Onların bu terroru 1905-1907-ci illərdə, 1918-1920-ci illərdə, 1937-ci ildə, 1948-1952-ci illərdə, 1988-ci ildə bizim başımızda çatladı, yüz ildə neçə dəfə açıq və gizli terrorun, repressiyanın qurbanı olduq. Hələ mən Birinci dünya müharibəsi, İkinci dünya müharibəsi illərini demirəm. Bütün bu illərdə ermənilər bizi eninə-uzununa doğramışlar. Amma biz hər dəfə bunu az qala sükutla qarşılamış, yadımızdan çıxarmış və ya yadımızdan çıxarmağa məcbur edilmişik.

Sağ olsun hörmətli Prezidentimiz Heydər Əliyev cənabları. O, terror məsələsini, repressiya məsələsini qaldırmaqla onları unudulmağa qoymadı və tarixi olduğu kimi öyrənməyə imkan yaratdı.

Ermənilər bunları dərsliklərinə salır, yaddan çıxmasına heç cür imkan vermir, əksinə, gündən-günə daha da gücləndirirlər. Onların məşhur yazıçılarından Daronyan ölüm ayağında öz xalqına görün nə vəsiyyət edir: "Ey erməni, çöldə zəhərli bir ilan görüb öldürməsən, səni bağışlamaq olar, amma bir türkü görüb öldürməsən, heç bir erməni səni bağışlamaz."

Budur bizim nankor qonşularımızın arzuları. 1991-ci ildə bir neçə türk soydaşımızla böyük M.Ə.Rəsulzadənin Ankarada əski məzarlıqdakı qəbrini ziyarət edirdik.

Məmməd Əminin qəbrindən bir qədər aralı terrorçular tərəfindən iş başında öldürülmüş şəhid türk diplomatlarının məzarları vardır. 1973-cü il yanvarın 27-dən 1989-cu il noyabrın 19-na qədər dünyanın müxtəlif ölkələrində 39 türk diplomatı öldürülmüşdür. Onların hamısının cənazəsi Vətənə gətirilmiş, bu məzarlıqda dəfn olunmuş, xatirələrinə abidə yüksəldilmiş, üzərinə isə yazılmışdır: "Burası terroristlər tərəfindən görev başında şəhid edilmişlərin istirahətgahıdır."

Mən guya xəbərsiz kimi türk qardaşlarımızdan soruşdum:

- Əcəba, bunlar hansı namərd terroristlərin əli ilə öldürülmüşlər?

Yəhya Daşdələn dilləndi:

- Kim olacaq ya, əlbəttə, ermənilər!

- Əfəndim, bunu nədən bilək, hər müsafirin yanına Sizi qoşa bilmərik ki, deyəsiniz, bu, ermənilərin işidir. Ölənin adını, ölüm tarixini yazırsınız, bəs öldürəni niyə demək istəmirsiniz? Axı, bizim düşmənlərimiz az qala beşikdəki çağalarına da qandırırlar ki, ermənin ən qatı düşməni türkdür.

Türklərin biri yarıciddi, yarızarafat dedi ki, biz ermənilərin adını məzar daşına həkk etməklə şəhidlərimizin ruhuna toxunmaq istəmirik.

Bir başqası isə digər mövqedən yanaşaraq mənimlə razılaşdı və dedi: "Doğrudur, biz bunu nəinki məzarlıqda, hətta dərsliklərimizdə də qeyd etməliyik. Qoy gələcək nəsil bilsin ki, biz türkçülüyümüzü, vətənimizi qorumaq yollarında hansı nadanlara rast gəlmişik."

Belə düşünənlər bizdə də çox olmuşdur. Əhməd bəy Ağayev 1906-cı il fevralın 28-də Tiflisdə Qafqaz canişininin yanında keçirilən müşavirədə "Daşnak" partiyasının hərəkətlərinə göz yuman hökumətin özünü tənqid və ifşa edərək demişdir: "İndi ki belədir, indi ki bir müsəlləh partiya on beş ildən bəri təşkil olunub, hökumət adamları bunu bilib də,



nəinki əlac etməyib, bəlkə onunla həməqidədirlər, onda lazımdır biz özümüz-özümüzün əlacımızı edək."

Əhməd bəy bunun əlacını onların terrorunu dəf etməkdə görürdü. Bununla da o, "Difayi" partiyasını yaratmaq fikrinə düşür. O, belə bir iş üçün Gəncəni seçir və Tiflisdən qayıdanda yolüstü burada dayanır. Buranın qeyrətli cavanları, mütərəqqi ziyalıları ilə görüşür. Ağzınacan dolu olan məsciddə çıxış edərək deyir: "Möhtərəm Gəncə xalqı, türklərlə ermənilər arasında əmələ gələn son hadisə hamımızı mütəəssir etdi. Nə müsəlmanlıq, nə də insanlıq böylə vəhşətə yol verməz... Yer üzündə Allahın yaratdığı nə qədər vəhşi və yırtıcı heyvan varsa, onlar başqa heyvanları parçalarlar. Amma öz həmcinslərinə əsla toxunmazlar. Nə acıdır ki, vəhşi heyvanların yapmadıqlarını ermənilər yapırlar... Tarixdə bu naxoş hadisəyə bənzər heç bir hadisəyə rast gəlməmişik."

Həmin günün axşamı Əhməd bəy və Gəncə ziyalılarından Ələkbər Rəfibəyli, Ələkbər və Ələsgər Xasməmmədov qardaşları, doktor Həsən Ağayev, Nəsib bəy Usubbəyov yığışıb götür-qoy etdilər. Hamı belə qərara gəlir ki, "xalqı təşkilatlandırmaq lazımdır". Belə də edirlər, "Difayi" yaranır.

Bizim son 70 ildə tarixi və siyasi mənbələrdə həmin "Difayi" "mürtəce burjua-mülkədar bəylərin" yaratdığı və "millətlər arasında toqquşmalar salan" bir qurum adlandırılmışdır.

"Difayi" çox sürətlə yayıldı. Artıq bir neçə gündən sonra küçələrdə intibahnamələri, intiqama çağırış vərəqələrini yığıb-yığışdırmaq mümkün deyildi. Həmin intibahnamələrin birində oxuyuruq: "Firqəmizin məqsədi Qafqaz xalqları arasında səmimi qardaşlıq və birlik yaratmaqdır. Hərgah "Daşnak" firqəsi... qabaqda olduğu kimi müsəlmanların üstünə xain və qəddarcasına hücumlarına davam edərsə, bizdən layiqli cavabını alacaqdır."

Daşnakların mənfur siyasətini və alçaq niyyətlərini başa düşən difayiçilər bəyanatda belə bir qəti fikir də irəli

sürürdülər: "Daşnak" firqəsi əmin olsun ki, heç vaxt biz öz millətimizin xarabalığı və külü üzərində erməni millətinin səadət və xoşgüzəranlıq qurmasına yol verməri k."

Bundan sonra ermənilər araya düşüb sülh bağlamağa məcbur oldular. Bu sülhün ömrü cəmi 10 il oldu. Ermənilər üçün yeni bir əlverişli şərait 1918-ci ildə yarandı.

Bu məsələyə keçməzdən əvvəl mən 1906-cı il hadisələrindən bir mənzərəni sizin nəzərinizə çatdırmaq istəyirəm. Bu Ömər Faiqin xatirələrindəndir. Mən Ömər Faiqi nəşrə hazırlayarkən Tiflisdə insan qırğınının mənzərəsi mənim nəzərimdən heç vaxt getməmişdir. Ömər Faiq yazır: "Voronsov körpüsündən keçən türk hamballarını yaxalayıb bağırda-bağırda sürüyüb körpünün kənarına gətirir və buradan çaya tullayırdılar. Suya atılan biçarələr boğulmamaq üçün var gücü ilə çalışır, sahilə yaxınlaşır, lakin güllə yağışına tutulub batır, axırda görünməz olurdular. Bir faciə qurtarmaq üzrə ikən o biri yandan təzəsi peyda olurdu... Pərdilərin arxalarında suların qanlı dalğaları arasına qarışıb gedən cansız, hərəkətsiz meyitlərin yerinə camaat təzə canlı lövhələr, mənzərələr görmək istəyirdi. Cansız meyitlərdən suyun səthi görünməz olmuşdu."

Belə tükürpədici mənzərələrə Qafqazın bütün iri şəhərlərində rast gəlmək olurdu. Xüsusən qadınlara, uşaqlara, qocalara rəhm etmirdilər. 1918-ci ildə Bakıda öldürülən qırılan, yandırılan, hər cür ağlasığmaz vəhşiliklə məhv edilən azərbaycanlılar 1906-cı ildəkindən daha çox idi. Burada vəziyyət çox ağır idi. Azərbaycanlıların silahı yox idi. İran cəbhəsindən qayıdan erməni əsgərləri toplutüfəngli Bakıya cəm olmuşdular. Rəhbərlər hamısı erməni idi. Martın 30-da döyüşlərə rəhbərlik etmək üçün S.Şaumyanın başçılığı ilə müdafiə komitəsi yaradıldı. Buraya Caparidze, Korqanov, Saakyan, Yolçiyan və başqaları daxil idilər. Üç gün ərzində Bakı talan edildi, qan dəryasında boğuldu. N.Nərimanov həmin dövrü belə təsvir edir: "Müsəlman hətta bolşevik olsaydı belə, ona aman



verməyirdilər. Daşnaklar deyirdilər: "Biz heç bir bolşevik tanımırıq, təkcə elə müsəlman olması kifayətdir." Onlar kefi istədikləri adamı öldürür, evləri dağıdır, xaraba qoyurdular... Bolşevizm bayrağı altında daşnaklar müsəlmanlara qarşı hər cür vəhşiliyə yol verirdilər, nəinki kişilərə, hətta hamilə qadınlara da rəhm etmirdilər."

Bakıda 12 min günahsız azərbaycanlı öldürülmüşdür. 7 min Şamaxıda, bir o qədər Qubada və s. şəhərlərdə məhv edilmişdir. O dövrün gözü görənləri yazırdılar ki, təkcə bir yerdən qulaqları, burnu kəsilmiş, qarınları yırtılmış, cinsi orqanları doğranmış 57 müsəlman qadınının meyiti tapılmışdır. Qətllər zamanı ermənilər 80 yaşlı Hacı Əmir Əliyevin evinə soxularaq onu, 60 və 70 yaşlı qoca arvadlarını öldürüb, 3 yaşlı uşağı doğramış, 25 yaşlı gəlini diri-diri divara mıxlamışlar.

Hüseyn Bayqara "Azərbaycan istiqlal mücadiləsi tarixi" əsərində yazırdı: "30, 31 mart, 1 aprel tarixində Bakıda azəri türklərinə qarşı... başlayan qırğın Şamaxı, Kürdəmir, Salyan, Quba, Lənkəran şəhər və ətraflarına qədər yayılmışdı. Artıq silahlı quldurların hədəfi Gəncə idi. Onlar bu dəfə Qarabağ erməniləri ilə sövdələşərək qüvvələrini birləşdirəcək və Gəncəyə hücum edəcəklər."

Düşmənlərimizin qəddarlığı, qaniçənliyi, heç bir insani qəlibə, əxlaq normalarına sığışmayan vəhşiliyi göz qabağındadır. Qazaxda diri-diri yandırılan ailələr də, Qarabağ səmasında vurulan təyyarələr də, partladılan vertolyotlar da, öldürülən bacı-qardaşlarımız, ixtiyar ata-analarımız da, Xocalı qırğınında əzabla öldürülən soydaşlarımız da qan yaddaşımızdan silinməməlidir. Onların xatirəsi düşmənlərimizə qarşı bizdə hər an, hər vaxt nifrət oyatmalıdır. Qan düşmənlərimiz bu yeni tarixi faciənin, bu vəhşi soyqırımının intiqamından yaxa qurtara bilməyəcəklər. Hər yandırılan kəndin, hər dağıdılan şəhərin, hər öldürülən körpənin qisası alınmalıdır. Nəyin bahasına olursa-olsun, günahsız insanların qanı batmamalıdır.

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN DEPUTATI, FİLOLOGİYA ELMLƏRİ DOKTORU, PROFESSOR VİLAYƏT QULİYEVİN ÇIXIŞI

Azərbaycanlılar XX əsr boyu bir neçə dəfə etnik əlamətlərə görə həyata keçirilən kütləvi soyqırımına məruz qalmış xalqlardan biridir. Bu soyqırımı cinayətini törədənlər ötən yüzilliyin əvvəllərindən başlayaraq Rusiya imperiyasının himayədarlığı sayəsində Azərbaycanın müxtəlif yerlərində, xüsusilə də Dağlıq Qarabağda, Bakıda, Gəncədə məskunlaşan və az sonra həmin torpaqlarda öz dövlətlərini qurmaq fikrinə düşən erməni millətçiləri olmuşlar.

Səksən illik sükutdan sonra həmvətənlərimizə qarşı işlənmiş dəhşətli soyqırımının öyrənilməsi və geniş ictimaiyyətə çatdırılması istiqamətində müəyyən işlər görülür. Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin ötən ilin və bu ilin mart aylarında imzaladığı müvafiq fərmanlar soyqırımı cinayətlərinin gerçək tarixi mənzərəsinin yaradılması, onu törədənlərin vicdan məhkəməsi qarşısına çəkilmələri üçün real imkanlar açır. Azərbaycan Respublikası Milli Məclisinin ötən il martın 31-də azərbaycanlıların soyqırımı günü münasibəti ilə keçirilmiş iclası xalqımıza qarşı törədilmiş cinayətlərə hüquqi qiymət vermək istiqamətində ilk qanunvericilik təşəbbüsü idi. Diqqətəlayiq haldır ki, ölkə parlamenti bir qədər spontan şəkildə də olsa, bu istiqamətdə fəaliyyətini davam etdirir.

Son illərdə bir qədər sistemsiz şəkildə də olsa, meydana çıxan çoxsaylı elmi-publisist əsərlərdə, çap olunan tarixi sənədlərdə daha çox 1905-ci ildən sonrakı erməni-azərbaycanlı qarşıdurması və birincilərin etnik zəmində törətdikləri cinayətlər diqqət mərkəzində dayanır. Doğrudur, 1905-ci il, həqiqətən də, hər iki xalqın qanlı xarakter alan nifaqa



və toqquşmalara cəlb edilməsinin başlanğıc nöqtəsi olmuşdur. Həm də bütün sonrakı münaqişələrdə olduğu kimi, 1905-ci ildə də ilk fitnəkarlıqlar imperiyaya arxalanan ermənilər tərəfindən törədilmişdir.

Ermənilərin bütün XX əsr boyu müxtəlif formalarda Azərbaycan xalqına qarşı soyqırımı siyasəti, təcavüz və fitnələri davam etmişdir. Kütləvi insan qırğınları, şəhər və kəndlərin yerlə-yeksan edilməsi, maddi mədəniyyət abidələrinin dağıdılması, milli genofondumuzun məhvi ilə müşayiət olunan bu cinayətlər mahiyyət etibarı ilə 1988-ci ildən sonra müstəqil Azərbaycan Respublikasına qarşı elan edilməmiş müharibəyə gətirib çıxarmışdır.

Acı və qanlı bəhrələri özünü XX əsrin əvvəllərində büruzə versə də, Qafqaz regionundakı erməni separatçılığının, Azərbaycan və gürcü xalqlarına qarşı çevrilmiş ərazi iddialarının başlanğıcı ötən yüzilliyin əvvəllərinə - ermənilərin rus çarının himayəsi altına sığınmaq məqsədi ilə indiki Azərbaycan torpaqlarına köçdükləri dövrə təsadüf edir. Çağırılmamış qonaqları imperiya hüdudlarına gətirməklə yerli xalqların, ilk növbədə isə müsəlman azərbaycanlıların başına necə bir bəla açdıqlarını tarixi ədalət və obyektivlik hissini itirməyən rus məmurları tezliklə özləri də başa düşmüşdülər.

Bələlərindən biri etnoqraf və tarixçi İ.Şopen 1852-ci ildə yazırdı: "Tatarların (azərbaycanlıların - V.Q.) xarakterində yaxşı cəhətlər daha çoxdur və güman etmək olar ki, onlar ruslarla qaynayıb-qovuşmağa daha meyllidirlər. Bir şərtlə ki, bir-birlərinə qarşılıqlı rəğbət bəsləyən bu xalqlar arasında vasitəçiliyi ermənilər öz üzərlərinə götürməsinlər. Onlar bu işdən yaxşı qazanc əldə edirlər. Tərəflərin birindən (azərbaycanlılardan - V.Q.) yalançı himayədarlıqlarına görə pul, digərindən (rus hakimiyyət dairələrindən - V.Q.) isə mükafat və ənam alırlar. Və heç bir halda heç bir şey itirmirlər. Çünki meydana çıxan münaqişələrdə erməni qanı axmır." Başqa bir namuslu rus məmuru V.Veliçkonun

aradan yarım əsr keçəndən sonra yazdıqlarından da görünür ki, onilliklər boyu azərbaycanlılara münasibətdə yürüdülən bu məkrli erməni siyasəti heç bir dəyişikliyə uğramamışdır. Əksinə, onlar müxtəlif üsullarla imperiyanın etimadını qazanaraq Qafqazın yerli xalqları üçün əsl bəlaya çevrilmişlər. V.Veliçko yazırdı: "Fəth olunmuş vilayətlərin sakinləri olan müsəlmanlar acı kinayə ilə soruşurlar: "Bəs ruslar haradadırlar? Onlar bu torpaqları kimin üçün tutublar? Hər halda belə görünür ki, özləri üçün almayıblar. Biz cəsur rus əsgərlərini görmüşdük. İndi isə yalnız zəif, hər şeydə təmənna güdən rus məmurlarını görürük. Əslində onların çoxu heç mənşəcə rus da deyil. Nə sizin tacirləriniz, nə də əkinçiləriniz gəliblər. Hara baxırıqsa erməniləri - dünənki nökərlərimizi görürük. Daha sizə sözümüz yoxdur. Hakimiyyəti belə pis adamlara vermək üçün müharibə etməyə dəyərdimi?"

Beləliklə, XIX əsrin başlanğıcında müstəqil Azərbaycan xanlıqlarının süqutu və onların ərazilərinin Rusiyaya ilhaq edilməsi əslində ruslardan daha çox ermənilərin xeyrinə olmuşdur. Təbii ki, köçkün ermənilərin çox qısa zaman içərisində iqtisadi cəhətdən dirçəlməsində, hakimiyyət orqanlarında təmsil olunmasında ənənəvi xristian həmrəyliyi və müsəlmanların qarşısına guya ermənilərdən sipər çəkmək siyasəti yürüdən çar Rusiyasının böyük rolu var idi.

Ermənilərin Azərbaycana köçürülməsi ilə regionda iki yüz ilə yaxın davam edən erməni zülmünün də əsası qoyulmuşdu. Bu zülm özünün iqtisadi, inzibati, mədəni və mənəvi formalarında bütün XIX əsr boyu davam etmişdi. Artıq ötən əsrin qırxıncı illərindən başlayaraq Azərbaycan ədəbiyyatında, xüsusilə də Qasım bəy Zakir və M.F.Axundov kimi xalqa daha yaxın olan sənətkarların əsərlərində erməni zülmünə etirazların ilk notları eşidilməyə başlanmışdı.

Ötən yüzillikdə daha çox idarəçilik və iqtisadiyyat sahələrini əhatə edən erməni zülmü Azərbaycanda kapitalizm



münasibətlərinin bərqərar olması ilə özünün daha kəskin mərhələsinə qədəm qoymuşdur. Türkiyədə erməni hərəkatının məğlubiyyəti, bu hərəkatın ağırlıq mərkəzinin Qafqaza keçirilməsi regionda erməni amilinin daha da güclənməsinə və nəticə etibarilə geniş miqyaslı qanlı olaylara yol açmışdı.

Bu qanlı olaylara ermənilər onilliklər boyu hazırlaşmışdılar. Çarizmin zəiflədiyi 1905-ci ildə başladıqları soyqırımı cinayətlərinə qədər onlar azərbaycanlıları hər vasitə ilə dövlət idarəçiliyindən və iqtisadiyyatdan sıxışdırmış, bu xalqın mədəni inkişafına - onun milli mətbuatını, maarif şəbəkəsini yaratmasına hər cür maneçilik törətmişdilər.

Azərbaycan həyatında ictimai tərəqqinin bir çox sahələrinin qarşısına erməni əli ilə çəkilən sədlər milli mətbuatımıza münasibətdə xüsusilə sərt və keçilməz olmuşdur. Mətbuatın kütlələrə təsir gücünü, xalqı hər hansı bir liderin, yaxud ideyanın ətrafında birləşdirmək imkanını yaxşı başa düşən erməni ideoloqları Azərbaycan xalqını bu mühüm silahdan məhrum etmək üçün uzun illər ardıcıl və inadlı mübarizə aparmışlar.

1850-ci ildə regionda mətbuat və kitab çapı işlərinə rəhbərlik etmək üçün rus çarının sərəncamı ilə Qafqaz Senzura Komitəsi yaradılmışdı. Komitənin yaradıldığı gündən birinci rus inqilabına qədər - yarım əsrdən artıq bir müddət ərzində Azərbaycan mətbuatının və ümumiyyətlə, bütün azərbaycandilli çap məhsullarının senzurası yalnız erməni məmurlarının əlində olmuşdur. Bakı və Tiflis arxivlərində saxlanan çoxsaylı sənəd və materiallar yerli və Şərq dilləri senzoru vəzifəsində bir-birini əvəz edən Arzanov, Kaytmazov, Məlik-Mehrabov, Kişmişev, Qaraxanov kimi ermənilərin Azərbaycan mətbuatının, millətinə yardım əli uzatmaq istəyən ziyalılarımızın başına açdıqları oyunlar barəsində dolğun təsəvvür yaradır.

İlk Azərbaycan qəzeti "Əkinçi"nin çapı senzura məsələsinə görə iki ildən artıq ləngimişdi. H.Zərdabi qəzet

çıxarmaq təşəbbüsü ilə 1873-cü ildə meydana atılsa da, "Əkinçi"nin ilk nömrəsi yalnız 1875-ci ilin iyul ayında işıq üzü görmüşdü. Bu gecikmə ona görə baş vermişdi ki, Qafqaz Senzura Komitəsinin yerli və Şərq dilləri senzoru Məlik-Mehrabov qəzetin hər nömrəsinin senzuradan keçirilmək üçün Tiflisə göndərilməsini tələb edirdi. H. Zərdabi komitənin bu tələbini dolayısı yolla qəzetin nəşrinə icazə verməmək kimi qiymətləndirirdi. Həqiqətən də, dövrün nəqliyyat və kommunikasiya şərtləri Bakıda çıxan qəzetin Tiflisdə senzor nəzarətinə göndərilməsini son dərəcə mürəkkəb və süründürməçi bir prosesə çevirirdi. Nəhayət, iki il yarımlıq yazışmalardan sonra Zərdabiyə böyük simpatiya ilə yanaşan Bakı qubernatoru Staroselskinin təkidi nəticəsində qəzetin qubernator dəftərxanasının rəisi baron de Manforun senzorluğu ilə Bakıda çıxmasına icazə verildi.

Lakin qərəzkar erməni məmurları bu "özbaşınalığı" unutmadılar və əllərinə fürsət düşən kimi ilk Azərbaycan qəzetinin taleyində öz qara və çirkin rollarını oynadılar. 1877-ci ildə, Rusiya-Türkiyə müharibəsinin qızğın dövründə Bakı quberniya mətbəəsinin mürəttibi erməni Minasovun donosu nəticəsində qəzet bağlandı. Minasov "Əkinçi"ni siyasi proseslərə müdaxilədə, Rusiya dövlətinə etimadsızlıqda və türkpərəstlikdə təqsirləndirdi. Qafqaz Senzura Komitəsində özünə isti yuva qurmuş senzor Məlik-Mehrabova öz işini görmək üçün həmmillətinin bu çuğulçuluğu kifayət idi...

Aydın ideya-siyasi xətti və milli mövqeyi olmayan, qeyri-ardıcıl şəkildə çıxan "Ziya" və "Ziyayi-Qafqaziyyə" qəzetləri Məlik-Mehrabovu o qədər də narahat etmirdi. Lakin "Ziyayi-Qafqaziyyə" epizodik də olsa, siyasət məsələlərinə qarışmaq fikrinə düşəndə, dərhal senzor Məlik-Mehrabovun təqdimatı ilə bağlandı. Erməni məmuru qəzetdə çap olunmuş "Ərəbi paşanın müsəlmanlara müraciəti" adlı məqaləni Rusiya dövlətinin mənafeyinə



ziyan vuran, pantürkist və panislamist mövqedən yazılmış çağırış kimi qiymətləndirirdi. Azərbaycan mətbuatına və ümumən milli ziyalılarımıza qarşı çevrilmiş bu mənhus siyasətin ağrı-acılarını öz taleyində dönə-dönə yaşayan Cəlil Məmmədquluzadə xatirələrində göstərirdi ki, "erməni senzorları həmişə Rusiya hökumətinin nəzərinə bunu yetirmək istəyirdilər ki, Qafqazdakı cəmi türk ədib və jurnalistləri "panislamistdirlər" və türk jurnalistləri Qafqaz camaatını islamın yaşıl bayrağı altına çəkmək istəyirlər."

Məhz senzor Məlik-Mehrabovun 1891-ci il 4 oktyabr tarixli donosu nəticəsində keçən əsrin sonuncu Azərbaycan mətbuat orqanı olan "Kəşkül" jurnalı da guya xristian dinini və xristian əxlaqını ələ saldığına görə bağlanmışdı. Beləliklə, 1903-cü ilə qədər tam on iki il Azərbaycan mətbuatının taleyini həll edən erməni məmurları rahat nəfəs almaq imkanı qazanmışdılar. 90-cı illərdə ana dilində qəzet çıxarmaq xahişi ilə Senzura Komitəsinə müraciət edən ziyalılar - N.Nərimanov, M.Şahtaxtinski, S.M.Qənizadə, Ə.Ağaoğlu və başqaları həmin məmurların qəti müqavimətinə rast gəlmiş və öz niyyətlərini həyata keçirə bilməmişdilər.

1906-cı ildən etibarən Azərbaycan mətbuatı üzrə senzor vəzifəsində çalışan tanınmış ziyalı Mirzə Şərif Mirzəyev (1861-1937) çox doğru olaraq yazırdı ki, "Qafqaz Senzura Komitəsi türk mətbuatının inkivizatoru idi, eyni zamanda Komitə "siyasi cəhətdən etimadsız" sayılan Qafqaz türklərinin qəti şəkildə buraxılmadıqları müqəddəs bir ibadətgah sayılırdı". İndiyə qədər çap olunmayan və Azərbaycan EA-nın Əlyazmalar İnstitutunda mühafizə edilən "Qafqazda türk mətbuatının tarixindən" adlı əsərində M.Ş.Mirzəyev göstərirdi ki, "Komitənin gizli sənədləri ilə tanış olduqca mən türk dilində qəzet, kitab, yaxud pyeslərin nəşrinin qarşısını almaq üçün uydurulmuş böhtançı-provokasiya xarakterli süni və həyasız saxtakarlıqlara və ədalətsizlik hallarına çox tez-tez rast gəlirdim". Azərbaycan

mətbuatına qarşı çevrilmiş həmin "sənədlər"in əksəriyyətinin müəllifləri 1899-cu ildə yerli və Şərq dilləri senzoru vəzifəsində Məlik-Mehrabovu əvəz edən baş senzor A.Kişmişev və onun əlaltısı, kiçik senzor Q.Qaraxanov idilər.

Öz "Xatirat"ında Azərbaycan mətbuatına düşmən kəsilmiş bu erməni məmurlarının dəqiq səciyyəsini verən C.Məmmədquluzadə yazırdı: "O zaman sansor idarəsində türk şöbəsində türklərdən bir kəs yox idi. Ancaq iki nəfər şəxs var idi: biri erməni Kişmişev, o biri yenə erməni Qaraxanov. Bunların hər ikisi türkcə azsavadlı idi və qəzetin ("Şərqi-rus" nəzərdə tutulur-V.Q.) materialını gərək hüccələyə-hüccələyə oxuyub məzmunundan xəbərdar ola idilər və çap olunmasına izn də verə idilər".

XX yüzillikdə Azərbaycan mətbuatının ilk nümunəsi - 1903-cü ildən etibarən Tiflisdə M. Şahtaxtinskinin redaktorluğu ilə nəşrə başlayan "Şərqi-rus" qəzeti də mövcudluğunun ilk günlərindən erməni senzorların təqib hədəfinə çevrilmişdi. A.Kişmişevin təhriki ilə Qafqaz Senzura Komitəsinin sədri baron Qakkel tərəfindən qəzetin redaktoruna göndərilən 1903-cü il 30 may tarixli xəbərdarlıq məktubunda deyilirdi: "Sizin redaktoru olduğunuz "Şərqi-rus" qəzetini senzuradan keçirən yerli və Şərq dilləri senzorunun verdiyi məlumata görə, qəzetdə tez-tez dil quruluşuna və ifadə tərzinə görə Zaqafqaziya müsəlmanlarının danışdıqları Azərbaycan ləhcəsi ilə heç bir dil ümumiliyi olmayan məqalələr dərc edilir." Təbii ki, burada söhbət Azərbaycan dilinə qayğıdan, onun təmizliyini qorumaqdan getmirdi. Kişmişevin fikrincə, qəzeti bütün türk xalqlarının anlaya bildikləri dildə nəşr etməklə M.Şahtaxtinski imperiyaya qarşı müsəlman və türk birliyi ideyasını əməldə həyata keçirirdi. Kiçik senzor Q.Qaraxanov isə "Şərqi-rus"un əsas qüsuru kimi belə bir cəhəti göstərirdi ki, onun səhifələrində Kazandan, Həştərxandan və s. yerlərdən göndərilmiş materiallar və



müxbir məktubları çap edilir. Başqa sözlə desək, erməni senzorlar hər vasitə ilə Qafqazdakı çar hakim dairələrinin diqqətini Azərbaycan ziyalılarının guya pantürkizm və panislamizm ideyaları yaydıqlarına yönəltmək istəyirdilər.

M.Şahtaxtinski Komitəyə təqdim etdiyi 1903-cü il 26 iyun tarixli məlumatda əleyhdarlarının qərəzli mövqedə dayandıqlarını, məsələnin mahiyyətini bilərəkdən saxtalaşdırdıqlarını göstərərək yazırdı: "Mən qəzetdə heç bir süni dildən istifadə etmirəm. Buradakı bütün məqalələr Batumdan tutmuş Ərzuruma, Petrovskdan (indiki Mahaçqala - V.Q.) tutmuş Təbrizə qədər Zaqafqaziya müsəlmanlarının danışdığı və yazdığı dildədir. Mən süni dildə yazmıram, əksinə cənab Kişmişev özü türk dilini bilmir. O, yerli türkcənin Yelizavetpol (Gəncə - V.Q.) dialektində məhdud miqdarda söz ehtiyatına malikdir. Ancaq bu sahədə savadı o qədər dayazdır ki, hətta sərbəst şəkildə cümlə qurmağı belə bacarmır." Maraqlıdır ki, Qafqazda onlarca Azərbaycan ziyalısı hökumət qulluğuna yaxın buraxılmadığı halda, Azərbaycan mətbuatının taleyi kəmsavad, üstəlik də xəbis və qərəzkar erməni məmurlarının öhdəsinə buraxılmışdı. Bu, çarizmin, daha sonra isə onun varisi olan sovet imperiyasının yürütdüyü ədalətsiz "parçala və hökm sür!" siyasətinin tərkib hissəsi idi.

"Şərqi-rus" qəzetinin redaktoru bu ədalətsizliyə öz kəskin etirazını bildirərək yazırdı: "Kişmişevin yerinə başqası olsaydı, tutduğu vəzifəyə uyğun savadının olmadığını görüb öz yerini daha layiqli adama verərdi. O isə əsassız ittihamlarla mənim nəşrimi gözdən salmağa çalışır ki, yerli və Şərq dilləri senzoru kimi maaş almaqla bərabər özünü həmin dilləri bilmək əziyyətindən xilas etsin."

Aydın məsələdir ki, arxasını yüksək rütbəli çar məmurlarına söykəmiş erməni senzorlara qarşı M.Şahtaxtinskinin qeyri-bərabər mübarizəsi heç bir nəticə vermədi. Senzura Komitəsinin sədri baron Qakkel onun yazılı məruzəsini geri qaytararaq Kişmişev barəsində deyilənlərin hamısını ixtisar

etməsini tələb etdi. M.Şahtaxtinskinin şikayətlə üz tutduğu Peterburqdakı Mətbuat İşləri üzrə Baş İdarə də erməni senzorun tərəfində dayandı. Əslində hadisələrin başqa cür nəticələnəcəyini gözləmək də sadəlövhlük olardı. Azərbaycanlı senzor M.Ş.Mirzəyevin dəqiq müşahidə etdiyi kimi, "Qafqazdakı rəislər onlara (Kişmişev və Qaraxanov nəzərdə tutulur - V.Q.) inanırdılar. Onların həyasızlığı isə elə bir dərəcəyə çatmışdı ki, qətiyyən xəcalət çəkmədən ağıllarına gələn hər cür cəfəngiyyatı yazıb, altından imza atırdılar." Təsadüfi deyil ki, Kişmişevin bilərəkdən, məqsədyönlü şəkildə Azərbaycan mətbuatının inkişafına vurduğu zərbələri çoxsaylı dəqiq mənbələr və arxiv materialları əsasında ümumiləşdirən, bunu eləcə də 1906-cı ildən sonrakı birgə fəaliyyətlərində dönə-dönə müşahidə edən M.Ş.Mirzəyev onu "türk mətbuatının nəhs dahisi" (злой гений тюркской печати) adlandırırdı.

"Şərqi-rus" Senzura Komitəsinin təzyiqləri altında fəaliyyətini dayandırdıqdan sonra erməni senzorlar bütün qüvvələrini Bakıda Əhməd bəy Ağayev (Ağaoğlu) və Əli bəy Hüseynzadənin redaktorluğu ilə çıxan "Həyat" qəzetinin bağlanmasına yönəltmişdilər. Bu məqsədlə qəzetin hər nömrəsi təftiş edilir, azərbaycanlıların milli oyanışının zəruriliyi ilə bağlı yazılar Kişmişevin, yaxud Qaraxanovun müvafiq şərhləri ilə Qafqaz adminstrasiyasına, eləcə də bədnam Üçüncü şöbəyə göndərilirdi. Regionda erməni-müsəlman münaqişəsi başlandıqdan sonra isə Qaraxanov və Kişmişev "Həyat"ı etnik konflikti qızışdırmaqda, azərbaycanlıları və erməniləri bir-birlərinin üzərinə qaldırmaqda ittiham edirdilər. Onların təhriki ilə İrəvan şəhər başçısı Məlik-Ağamalov guya etnik münaqişələrə rəvac verdiyinə görə Qafqaz canişini qarşısında "Həyat" qəzetinin bağlanması məsələsini qaldırmışdı.



Ermənilərin "Həyat"a qarşı apardıqları kampaniya o qədər açıq-aşkar və geniş idi ki, bu çirkin hərəkat o zaman Kazanda yaradıcılığa və mətbuat fəaliyyətinə yeni başlayan tatar şairi Qabdulla Tukayın da diqqətini cəlb etmiş və onun şerlərindən birinin mövzusuna çevrilmişdi. Kişmişevlə Qaraxanovun "Həyat" qəzetinin naşiri Hacı Zeynalabdin Tağıyevin, görkəmli Azərbaycan ziyalıları Ə.Ağayevin və Ə.Hüseynzadənin haqqında yazdıqları donos və iftiraların bir çoxu "Qafqazda türk mətbuatının tarixindən" əsərində öz əksini tapıb.

Milli mətbuatımız üzərində senzuranı əllərinə keçirmiş ermənilər onun mövzu dairəsini hər vasitə ilə məhdudlaşdırmağa, nəşrinə min bir çətinliklə icazə alınmış qəzetləri nəyin bahasına olursa-olsun "sarı vərəqəyə" çevirməyə çalışırdılar. Onların fikrincə, Azərbaycan qəzetləri siyasi məsələlər haqqında yaza bilməzdilər. "Haman əsrin sansorunun tələbatı o qədər səxt (sərt, möhkəm - V.Q.) idi ki, siyasət nədir ki, siyasətin qorxusundan "s" hərfini yazmağa cürət eləməzdik" - Cəlil Məmmədquluzadənin özünəməxsus ironiya ilə yazdığı bu sözlər əslində həqiqət idi. Azərbaycan mətbuatını simasızlaşdırmaq, onu xalqın ehtiyac və tələblərindən uzaq salmaq, çar mütləqiyyətinin ruporuna çevirmək erməni senzorların əsas məqsədi idi. Müqayisə üçün demək lazımdır ki, dövrün gücrü, yaxud erməni mətbuatına münasibətdə eyni hal müşahidə edilmirdi. Qaraxanov və Kişmişev repressiv üsullar və sərt qadağalarla Azərbaycan ziyalılarında mətbuata marağı birdəfəlik öldürmək istəyirdilər. Cəlil Məmmədquluzadənin aşağıdakı sözləri onların qarşılarına qoyduqları əsas məqsədə aydınlıq gətirir: "Bilirdik ki, türk mətbuatını gözləri götürməyən sansorlar, Qaraxanov, Kişmişevlər hələ ölməyiblər. Və nə qədər ki onlar ölməyiblər və sansorluqda

vardırlar, ruznaməyə (qəzetə - V.Q.) izn ala bilsək də, bir şey yaza bilməyəcəyik."

Qafqaz Senzura Komitəsindəki erməni məmurların başqa bir sevimli məşğuliyyəti əsrin əvvəllərindəki azsaylı Azərbaycan ziyalılarını hər vasitə ilə bir-birlərinin üzərinə qaldırmaq, onların arasında ixtilaf və münaqişə salmaq idi. Bunun üçün də şəxsi və yerliçilik münasibətlərindən, məzhəb ayrılıqlarından və s. bacarıqla yararlanırdılar. Məsələn, Şəki sakini, Peterburq Arxeologiya İnstitutunun məzunu Ə.Mustafayev "Günçıxan" adlı qəzetin nəşrinə icazə almaq məqsədi ilə Senzura Komitəsinə müraciət etdikdə Kişmişev dərhal onun xahişinə müsbət yanaşmış və Komitə sədrinin adına yazdığı məlumatda razılığını belə əsaslandırmışdı: "Mustafayevin sünni olduğunu nəzərə alaraq ümid bəsləmək olar ki, "Günçıxan" qəzeti hazırda şiələrin əlində cəmləşmiş müsəlman mətbuatına tənqidi surətdə yanaşacaqdır".

Tiflisdə yaşayan başqa bir azərbaycanlı ziyalı - sonralar Azərbaycan tarixinə dair tədqiqatları ilə tanınan Rəşid bəy İsmayılov "Təzə zaman" adlı qəzet çıxarmaq fikrinə düşəndə Kişmişev və Qaraxanov onun "siyasi etimadsızlığı" barəsində müxtəlif ünvanlara donoslar göndərməyə başlamışdılar. Öz təsirləri altına aldıqları Senzura Komitəsinin sədri baron Qakkelə təqdim etdikləri məlumatda onlar yazırdılar: "Rəşid bəy İsmayılovun paytaxt və Tiflis mətbuatındakı publisist fəaliyyəti onun öz əqidəsinə görə panislamizm təliminin tərəfdarlarından olduğunu ehtimal etməyə əsas verir." Daha sonra bildirilirdi ki, "panislamist partiyasının" (əslində belə bir partiya mövcud deyildi, mifik panislamizm xofu rus məmurlarını qorxutmaq və onlara guya islam dünyasının avanpostunda dayanmış ermənilərə yardım göstərmək fikrinin labüdlüyünü aşılamaq üçün lazım idi) Qafqazda "Həyat" və "Kaspi" kimi iki güclü mətbuat



orqanı var və belə bir şəraitdə yeni başqa bir qəzetin nəşrinə icazə verilməsi müsəlman kütlələr arasında panislamizm ideyalarının daha geniş miqyasda təbliğinə imkan yarada bilər." Qeyd edək ki, qəzet çıxarmaq niyyətində olanların ərizələrinə rədd cavabı veriləndə səbəb kimi "panislamizm" deyil, tamamilə başqa motivlər göstərilirdi. Məsələn, 1905-ci il iyulun 15-də R.İsmayılova, habelə "Novruz" və "İqbal" adlı qəzetlər çıxarmaq xahişi ilə Komitəyə müraciət etmiş C.Məmmədquluzadə və M.Vəkilova senzor çatışmaması bəhanəsi ilə rədd cavabı verilmişdi.

Bu haqsızlığa öz kəskin etirazını bildirən R.İsmayılov Qafqaz canişini İ.İ.Vorontsov - Daşkova 1905-ci il 28 iyul tarixli şikayət ərizəsində yazırdı: "Mənə, eləcə də digər müsəlmanlara *senzor çatışmadığına görə* (kursiv müəllifindir- V.Q.) qəzet nəşrinə icazə verməmişlər. Mən bütün varlığımla buna etiraz edir, həmin rədd cavabını biabırçı və ədalətsiz hərəkət sayıram. Qəti surətdə bildirirəm ki, bu hərəkətin kökü Qafqaz Senzura Komitəsinin Siz əlahəzrətlərə təqdim etdiyi qərəzkar və biabırçı-ədalətsiz məruzədədir." Senzor çatışmazlığının əslində erməni məmurların qonşu xalqın ziyalılarına qarşı yeni fitnəsi olduğunu göstərən R.İsmayılov hökumətin Azərbaycan mətbuatına barmaqarası münasibətinə öz hiddətini bildirərək daha sonra yazırdı: "Qafqaz Senzura Komitəsində rus, erməni və gürcü senzorlar var. Lakin bir nəfər də olsun, müsəlman senzor yoxdur. Müsəlman mətbuatının senzurası iki erməniyə - Kişmişev və Qaraxanova tapşırılmışdır. Qəti şəkildə bildirirəm və sübut etməyə (edə bilməsəm, böhtançı kimi məhkəmə qarşısında dayanmağa) hazıram ki, onların Şərq dilləri sahəsindəki bilikləri son dərəcə yarıtmazdır."

R.İsmayılov Qafqaz Senzura Komitəsinin Azərbaycan mətbuatına düşmən münasibətinin bilavasitə Kişmişev və Qaraxanovun "fəaliyyətinin" nəticəsi olduğunu da açıq şəkildə Qafqaz canişininin diqqətinə çatdırmışdı: "Mən qətiyyətlə təsdiq edirəm ki, Qaraxanov və Kişmişev Qakkeli əsassız surətdə və qərəzkarlıqla müsəlman mətbuatına qarşı qaldırmaqla cinayətkarcasına səhlənkarlığa yol vermişlər. Mən zavallı müsəlmanları müdafiə məqsədi ilə paytaxt mətbuatında bir neçə yazı dərc etdirmişəm. Peterburq qəzetlərində çıxan məqalələrimizin heç birində Senzura Komitəsi mifik panislamizmi xatırladan ən kiçik bir işarəyə də təsadüf edə bilməz." Aydın məsələdir ki, ermənilərin təsiri altında olan, Əhməd bəy Ağayevin dediyi kimi, erməni "terrorunun qarşısında qorxaqcasına boyunlarını" əyən çar məmurları, eləcə də canişin Vorontsov-Daşkov öz xalqının dərdlərinin tərcümanı olmaq istəyən Azərbaycan ziyalısının şikayətlərinə insaflı və obyektiv yanaşmaq niyyətində deyildilər.

Qafqaz Senzura Komitəsinin Azərbaycan mətbuatına ögey münasibətini 1905-ci il birinci rus inqilabı və regionda başlanan milli dirçəliş qismən də olsa dəyişdirdi. Komitənin tarixində ilk dəfə olaraq Azərbaycan mətbuatının senzurası, yuxarıda da qeyd etdiyim kimi, milliyyətcə azərbaycanlı məmura - Qori müəllimlər seminariyasının məzunu Mirzə Şərif Mirzəyevə tapşırıldı. Yalnız bundan sonra milli mətbuatımızın və nəşriyyat işlərinin qarşısına çəkilən süni sədlərin bir qismini aradan qaldırmaq mümkün oldu. "Molla Nəsrəddin", "Füyuzat", "İrşad", "Tərəqqi", "Açıq söz" və başqa qəzet və jurnalların yüksək səviyyəli nəşri və qısa müddət ərzində təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da populyarlıq qazanması, millətə öz haqqını və hüququnu anlatması ermənilərin onilliklər boyu



milli ziyalılarımızı necə bir kəsərli silahdan məhrum etdiklərini aydın şəkildə göstərdi.

Qafqaz Senzura Komitəsinin erməni məmurları anadilli mətbuatımızın qarşısına sədd çəkməklə bir sırada yeri gəldikcə "müsəlman məsələsi" üzrə ekspert kimi də çıxış edirdilər. Bir tərəfdən Kişmişev və Qaraxanov, o biri tərəfdən isə Qafqaz Senzura Komitəsinin katibi Melik-Nubaryan təkcə erməni qəzetlərində deyil, təsirləri altına aldıqları rusdilli Qafqaz mətbuatında da Rusiya imperiyasını və xristian əhalini təhdid edən "islam təhlükəsi" haqqında başdan-başa uydurmalardan ibarət məqalələr çap etdirirdilər. M.Ş.Mirzəyevin yazdığı kimi, bu yolla "Qafqaz Senzura Komitəsinin divarları arasında ərsəyə gətirilən "panislamizm" polis departamentindən başlamış Baş Jandarm İdarəsinə qədər imperiyanın bütün inzibati idarələri üçün günün ən vacib probleminə çevrilmişdi." Nəticədə, mətbuatda dövlət sirlərini qorumalı olan Senzura Komitəsi əslində daşnak təbliğat maşınının funksiyalarını yerinə yetirirdi. Maraqlıdır ki, I Dövlət Dumasına Rostovdan deputat seçilmiş milliyyətcə erməni olan Əcəmov bir dəfə Rusiya Baş Mətbuat İdarəsinin rəisi qofmeystr Belqardla söhbətində yarızarafat, yarıciddi şəkildə bildirmişdi ki, "Qafqaz Senzura Komitəsi Daşnaksütyun partiyası qərargahının mətbuat şöbəsidir." Və əslində də belə idi.

Azərbaycan ictimai-siyasi fikrinə, Azərbaycan ziyalılarına qarşı mübarizədə Qafqaz Senzura Komitəsinin erməni məmurları bir sıra hallarda gizli xəfiyyə funksiyasını öz üzərlərinə götürməkdən də imtina etmirdilər. Məsələn, Tiflis qubernatorunun 1901-ci il 19 fevral tarixli məktubuna əsasən Komitədən sərəncamında olan kanallar vasitəsi ilə regiondakı müsəlman hərəkatı, onun liderləri, digər islam ölkələri ilə əlaqələri, məqsədləri, mübarizə vasitələri və yolları və s. barəsində məlumat toplamaq tələb olunurdu.

Komitə sədri baron Qakkelin əmri ilə həmin vəzifənin icrası kiçik senzor Qaraxanova tapşırılmışdı.

Tapşırığı canfəşanlıqla yerinə yetirən Qaraxanov tezliklə "Zaqafqaziya müsəlmanlarının əhvali-ruhiyyələri və zehni tələbatları haqqında yaddaş" adlı gizli sənəd hazırlayaraq polis departamentinə təqdim etmişdi. "Yaddaş"da əsasən aşağıdakı məsələlərin araşdırılması və daimi diqqət mərkəzində saxlanılması təklif olunurdu: "Müsəlman əhalisi arasında yenilikçi ideyalar və əsərlərlə çıxış edən müəlliflərin müəyyənləşdirilməsi, onların şəxsiyyəti, ictimai vəziyyəti, müsəlman mühitindəki əlaqələri, harada təhsil almaları barəsində dəqiq məlumat toplanılması, yenilik tərəfdarları ilə "gənc türklər" arasında əlaqələrin olub-olmadığının, habelə onların Türkiyədəki, yaxud digər müsəlman ölkələrindəki mərkəzlərdən məlumat alıb-almadıqlarının aşkara çıxarılması, təlimin yeni üsulla aparıldığı müsəlman məktəblərinin kim tərəfindən və harada yaradıldığının, orada kimlərin dərs keçdiyinin və s. öyrənilməsi". Qaraxanov təkcə bu planı nəzəri cəhətdən irəli sürməklə kifayətlənməmiş, onun ayrı-ayrı bəndləri ilə bağlı məlumat toplanmasında da yaxından iştirak etmişdi. O, Tiflisin rusdilli mətbuat orqanlarında "Xanzadə" təxəllüsü ilə məqalələr dərc etdirirdi, bu məqalələrin əsas hədəfi isə, təbii ki, "müsəlmanlar" idi. "X" inisialı ilə mətbuatda çıxış edən Kişmişev də eyni məsələlərin "tədqiqində" öz kiçik həmkarından geri qalmırdı. 1905-ci ildə Qafqazdakı iki qonşu xalq arasında ilk qanlı toqquşmaların başlanmasında belə başabəla ideoloqların təhrikçilik rolu az olmamışdı.

Qafqaz Senzura Komitəsindəki kişmişevlər, qaraxanovlar, melik-nubaryanlar tam əsasla 1937-ci ildə Azərbaycanın yaradıcı ziyalılarının böyük bir dəstəsinə divan tutmuş oqanesyanların, qriqoryanların və başqalarının xaç



ataları sayıla bilərlər. İkincilər öz sələflərinin yolunu davam etdirmiş, hətta yeni imperiyanın ermənilər üçün yaratdığı daha münbit şəraitdən yararlanaraq sələflərinin təsəvvürlərinə belə gətirmədikləri "uğurlar" qazanmışdılar. Əgər birincilər vur-tut Azərbaycan mətbuatının, mədəniyyətinin inkişafına maneçilik törətməyə çalışırdılarsa, ikincilər özlərini çox da əziyyətə salmadan bu mətbuatın, mədəniyyət və ədəbiyyatın ən parlaq nümayəndələri haqqında heç bir tərəddüd etmədən ölüm hökmü çıxarırdılar.

Hər iki halda əsasında türk düşmənçiliyi ideyası dayanan daşnak ənənəsi davam etdirilirdi.

Daşnak ideoloqlarından fərqli olaraq Azərbaycan xalqı, Azərbaycan ziyalıları heç vaxt erməni düşmənçiliyi mövqeyində dayanmamışlar və inanıram ki, bundan sonra da dayanmayacaqlar. Lakin bununla birlikdə, biz vətənimizdə iki yüz ildən bəri davam edən erməni zülmünün bütün dəhşətlərini üzə çıxarmalı və vətəndaşlarımıza çatdırmalıyıq. Tarixin və taleyin qonşuluqda yaşamağa məhkum etdiyi Azərbaycan və erməni xalqları biri-birləri barəsində bütün həqiqətləri bilməlidirlər. Bizim indiyə qədərki bir çox məğlubiyyətlərimizin kökündə tarixi həqiqətlərdən xəbərsizliyimiz, erməni ideoloqlarının isə bu həqiqətləri həm öz vətəndaşlarına, həm də dünya ictimaiyyətinə özlərinə sərf edən şəkildə çatdırmasıdır.

Ümid etmək olar ki, ölkə Prezidentinin fərmanından irəli gələn vəzifələrə münasibət mövsümi xarakter daşımayacaq və nəhayət, biz bu imkandan yararlanaraq bir çox həqiqətləri üzə çıxaracağıq.

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN DEPUTATI BABAXAN MURADOVUN ÇIXIŞI

Ermənilərin azərbaycanlılara qarşı soyqırımı barədə söhbətlərə mən bir də ona görə laqeyd qala bilmirəm ki, bu soyqırımında ermənilər tərəfindən qırılmış böyük bir nəslin sağ qalmış nümayəndələrindən birinin övladıyam. Mən bu soyqırımının nəticələrini öz nəslimin üzərində hiss etmişəm. Ermənilərin azərbaycanlılara qarşı soyqırımından söhbət gedəndə bu gün hamının gözü qarşısında Naxçıvan dayanmalıdır. Mən ötən dəfə Milli Məclisin iclasında demişəm və yenə də təkrar edirəm: Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və onun ətrafındakı 7 rayonu işğal etməkdən doymayan ermənilər artıq Naxçıvanı ələ keçirmək üçün müharibəyə hazırlaşırlar.

Bir neçə il bundan əvvəl Türkiyədə olarkən bildirdim ki, ermənilər onlara qarşı uydurma soyqırımından danışanda təkcə azərbaycanlılardan deyil, bütün türklərdən şikayətlənirlər. Mən Türkiyənin o vaxtkı baş naziri N.Ərbakana dedim ki, ermənilər Türkiyədə guya üç milyon ermənin öldürüldüyünü söyləyirlər. Nəyə görə türk alimləri, türk mətbuatı bu böhtanlara və yalanlara qarşı öz səslərini ucaltmırlar? Eyni sözlər azərbaycanlılara da aiddir. Biz ermənilərin soyqırımı haqqında saxtakarlığı ifşa edərək, həqiqi soyqırımına dair məlumatları bütün dünya ictimaiyyətinə çatdırmalıyıq.

Bu məqsədə nail olmaq üçün Azərbaycan ziyalıları və alimləri çox ciddi işlər görməli, əsaslı elmi araşdırmalar aparmalıdırlar. Amma bu gün tarixçilərimiz, digər alimlərimiz və mütəxəssislərimiz yazdıqları əsərləri çap etdirmək üçün maddi vəsait tapmaqda çətinlik çəkirlər. Bununla əlaqədar mənim bir təklifim var. Gəlin, Azərbaycanın imkanlı adamlarına müraciət edək ki, qazandıqları vəsaitin bir hissəsini xalqımızın tarixinə həsr olunan kitabların tərcüməsinə və nəşrinə xərcləsinlər. Azərbaycan alimlərinə kömək lazımdır. Tarixçilərə, bu işlə məşğul olan bütün mütəxəssislərə yardım etmək lazımdır ki, onlar soyqırımı haqqında həqiqətləri dünyaya çatdıra bilsinlər.



## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN DEPUTATI, AZƏRBAYCAN ELMLƏR AKADEMİYASININ PREZİDENTİ, FİZİKA-RİYAZİYYAT ELMLƏRİ DOKTORU, PROFESSOR FƏRƏMƏZ MAQSUDOVUN ÇIXIŞI

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin azərbaycanlıların soyqırımı gününün elan edilməsi barədə 1998-ci il martın 31-də imzaladığı fərman onilliklər boyu tariximizdən silmək istədikləri, milli faciələrimizin kökündə dayanan ağrılı-acılı bir həqiqəti yenidən qan yaddaşımıza həkk etdi. Möhtərəm Prezidentimizin bu fərmanı milli dövlətçilik ideologiyamızın qurulması yolunda mühüm addım olmaqla keçmişə münasibətimizi sistemli şəklə salır, ictimai fikrimizə bugünkü problemlərdən çıxış nöqtəsi ola biləcək məqsədyönlü xarakter verir. Tariximizin açılmamış səhifələrinin - azərbaycanlıların indiki Ermənistan ərazisindən deportasiya edilməsi, doğma yurdlarından didərgin salınması, kütləvi qırğınlara məruz qalması faktlarının dünya birliyinə və xalqımızın hər bir nümayəndəsinə, gələcək nəsillərə çatdırıla biləcək şəkildə öyrənilməsi və təhlil olunması üçün geniş imkanlar açır.

Tarix göstərir ki, düşmən ərazi iddiaları irəli sürməzdən əvvəl ideoloji mübarizədə üstünlük qazanmağa çalışır. Tarixi yalanlar, təhriflər, saxtalaşdırmalar əsasında qurduqları təbliğatın köməyi ilə ermənilər dünya ictimaiyyətini aldadır, xalqımıza qarşı dəhşətli cinayətlər törətdikləri

halda, özlərini soyqırımına məruz qalmış kimi göstərir, amma fürsət düşəndə öz xislətlərini büruzə verirlər. XIX-XX əsrlərin tarixi bunu dəfələrlə sübut etmişdir.

Azərbaycanlılara qarşı soyqırımı siyasətinin əsası çar Rusiyasının köməyi ilə ermənilərin Türkiyə və İrandan Qafqaz ərazisinə köçürüldüyü vaxtdan qoyulub. Müxtəlif dövrlərdə baş verən qırğınlar nəticəsində 2 milyona qədər soydaşımız məhv edilib. Xalqımızı yeni faciələrdən xilas etmək üçün alimlərimiz, yazıçılarımız, publisistlərimiz, digər peşə sahibləri azərbaycanlıların soyqırımı barəsində məlumatları dünya ictimaiyyətinə çatdırmalı, əsl həqiqətin öz yerini tutması üçün bütün bilik və bacarıqlarını sərf etməlidirlər. Tarixçilərimiz bu mövzuda hadisələri qələmə alıb müxtəlif dillərdə çap etdirməlidirlər.

Biz heç vaxt düşmən qarşısında əyilməmişik. Yazdıqlarımızı, söylədiklərimizi özümüz oxuyub, özümüz eşidirik. Dünya miqyasına çıxmaq lazımdır. Bizim tarixçilərimiz təşəbbüskarlıq göstərmir, ermənilərin arxasınca gedir, onların yazdıqlarına cavab verməklə kifayətlənirlər. Möhtərəm Prezidentimizin fərmanına əsasən biz milli mənafelərimizin müdafiəsi üçün çox işlər görməliyik.

Hiyləgər, xəbis qonşularımızın iç üzünü açıb göstərmək, Azərbaycanın faciələrini dünyaya bəyan etmək üçün respublikamızın bütün elmi potensialı səfərbər edilmişdir. Əmin etmək istəyirəm ki, Prezidentimizin tarixə münasibətdə bütün ictimai şüurumuzda yaratdığı canlanma və oyanış tez bir zamanda özünün əsaslanmış, elmi ifadəsini tapacaq və biz əsl həqiqəti, tarixi faktları, xalqımızın yaşamaq haqqını bütün dünya ictimaiyyətinə çatdıra biləcəyik.



## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN DEPUTATI, FİLOLOGİYA ELMLƏRİ DOKTORU, PROFESSOR HƏSƏN MİRZƏYEVİN ÇIXIŞI

Möhtərəm Prezidentimiz Heydər Əliyevin deportasiya və soyqırımı ilə bağlı fərmanları Azərbaycan xalqının tarixinin qaranlıq səhifələrinə işıq salan çox önəmli siyasi sənədlərdir.

Milli Məclisin keçirdiyi seminar-simpoziumu da mən bu istiqamətdə işi davam etdirən mühüm tədbir sayıram. Mən geniş çıxış etməyəcəyəm, yalnız bir neçə təklifimi bildirmək istəyirəm.

Əvvəla, indiki Ermənistan ərazisindən azərbaycanlıların deportasiyası, soyqırımı məsələlərinin araşdırılması üçün hüquqşünaslardan ibarət komissiya təşkil edilməli və həmin hadisələrə hüquqi qiymət verilməlidir.

Təcavüzkar Ermənistan və onu dəstəkləyən Rusiya şovinistləri beynəlxalq məhkəməyə verilməlidir.

XIX - XX əsrlər ərzində xalqımızın düçar olduğu faciələr barəsində materiallar arxivlərimizdə toplanmalıdır.

Azərbaycanın tarixi coğrafiyası dərindən öyrənilməli və müvafiq xəritələr işıq üzü görməlidir.

Deportasiya və soyqırımı nəticəsində həlak olan adamların təxmini də olsa miqdarı müəyyənləşdirilməlidir.

İlk demokratik dövlətimiz yıxıldıqdan sonra Sovet hökuməti tərəfindən zorla alınıb Ermənistana verilən əzəli torpaqlarımız - Göyçə, Zəngəzur, Dərələyəz... Azərbaycana qaytarılmalıdır.

Milli faciələrimizi əks etdirən foto-albomlar, videokasetlər hazırlanmalı, erməni cəlladlarının vəhşilikləri dünya ictimaiyyətinə çatdırılmalıdır.

Deportasiya və soyqırımı ilə bağlı milli televiziyamızda müntəzəm surətdə verilişlər hazırlanmalı, xalqımızın taleyi ilə bağlı olan bu məsələ mətbuat işçilərimizin diqqət mərkəzində olmalıdır. Nəhayət, gənclərimizin vətənpərvərlik ruhu yüksəldilməli, onlara vətəni müdafiə hissləri aşılanmalıdır.

## MİLLİ SİYASƏT MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT MÜŞAVİRİ HİDAYƏT ORUCOVUN ÇIXIŞI

Azərbaycan alimləri, yaradıcı ziyalılarımız soyqırımı problemlərinin öyrənilməsinə və dövlət başçısı möhtərəm Heydər Əliyevin müvafiq fərmanlarının həyata keçirilməsinə çalışmalıdırlar. Prezidentin hər iki fərmanının - həm "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 1997-ci il 18 dekabr tarixli, həm də "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli fərmanlarının çox böyük əhəmiyyəti vardır. Tədqiqatlar bu istiqamətdə aparılmalı, həmin sənədlərdən irəli gələn vəzifələr yerinə yetirilməlidir. Bunlar uzunömürlü fərmanlardır, iki əsrdə Azərbaycan xalqının başına gətirilən müsibətlərin siyasi mahiyyətini özündə əks etdirir.

Müzakirələrdə çox maraqlı fikirlər söyləndi. Rusiyanın himayəsi altında Ermənistan Azərbaycana qarşı çox böyük cinayətlər törədib, soyqırımı nəticəsində xalqımızı məhv olmaq təhlükəsi qarşısında qoyub. Bununla yanaşı, müxtəlif dövrlərdə Azərbaycana rəhbərlik etmiş şəxslərin də bu ağır cinayətlərdə iştirakı istisna edilmir, çünki onlar öz xalqının taleyinə biganə mövqe tutublar. 1988-ci ildən başlanan Qarabağ məsələsində də əvvəl-əvvəl belə proseslər müşahidə olunub. 71 il sovet rejimi şəraitində yaşayan Azərbaycanın, - Heydər Əliyevin rəhbərlik etdiyi 14 il istisna edilməklə, - elə bir rəhbəri olmayıb ki, onun vaxtında Azərbaycan torpaqlarının müəyyən hissəsi Ermənistana pay verilməsin. Bu, faktdır.

O da faktdır ki, bu sahədə Heydər Əliyevə ondan qabaqkı rəhbərlikdən yaxşı miras qalmamışdı. Belə ki, 1969-cu ilin may ayında Qazaxdan, Azərbaycanın bir sıra başqa bölgələrindən müəyyən ərazilərin Ermənistana verilməsi



haqqında qərar qəbul olunmuşdu. Bu qərarı Azərbaycanın, Ermənistanın ali sovetləri, habelə SSRİ-nin Ali Soveti qəbul etmişdi. Məhz Heydər Əliyev həmin ilin iyul ayında hakimiyyətə gəldikdən sonra bu proses dayandırıldı. Hamınıza məlumdur ki, o illərdə iki respublikanın və SSRİ-nin ali sovetlərinin qəbul etdikləri qərarın icrasını dayandırmaq nə demək idi. Bu, cəsarət, qüdrət, böyüklük, o dövrün rəhbərləri üçün qeyri-adi keyfiyyətlər tələb edirdi. Ancaq Heydər Əliyev buna nail ola bildi.

Yalnız Heydər Əliyev Moskvada olarkən Azərbaycan rəhbərlərinin öz xalqına etinasızlığı və xalq qarşısında məsuliyyətsizliyi nəticəsində 1969-cu ildə qəbul olunmuş qərar 1986-cı ildə həyata keçirildi. Eyni hallar 1948-1953-cü illərdə Ermənistandan azərbaycanlıların deportasiyası prosesində də müşahidə olunmuşdur. Yəni o vaxtkı Azərbaycan rəhbərləri istefa verə bilərdilər, həbs oluna bilərdilər, ancaq gərək onlar xalqın taleyinə zidd qərara razı olmayaydılar.

Qeyd etmək lazımdır ki, Ermənistanda bu sahədə vəziyyət başqa cür olmuşdur. Mən bir faktı sizin yadınıza salmaq istəyirəm. Bilirsiniz ki, Anton Koçinyan 13 il Ermənistan Nazirlər Sovetinin sədri və 9 il Ermənistan KP MK-nın birinci katibi olub. O ölənə yaxın Qarabağ məsələsi başlanmışdı. Ölümündən qabaq onun "Qarun" adlı gənclik jurnalında müsahibəsi çıxmışdı. Müxbir ondan soruşmuşdu ki, bəs siz uzun müddət mühüm vəzifələrdə olduğunuz halda nə üçün Qarabağ məsələsini qaldırmırdınız? Cavab vermişdi ki, müharibədən sonra biz, o cümlədən məndən əvvəlki Ermənistan rəhbərləri bu istiqamətdə son dərəcə səmərəli işlər aparmışdıq. Altmışıncı illərin sonlarında keçmiş SSRİ rəhbərliyində Qarabağın Ermənistana verilməsi fikri artıq formalaşmışdı. Siyasi büronun qərar layihəsi hazır idi. Artıq Siyasi büronun bəzi üzvlərindən buna razılıq da alınmışdı. Yalnız məsələnin

müzakirəsi və müvafiq qərarın qəbul olunması qalmışdı. Ancaq o vaxt Azərbaycan rəhbərliyinə gələn Heydər Əliyevin qısa vaxt ərzində Moskvada və bütün İttifaqda böyük nüfuz qazanması, öz xalqının müdafiəsi üçün gördüyü işlər bu məsələnin həllində bizə mane oldu. Axırda Sov. İKP MK-nın katibi Mixail Suslov məni öz yanına dəvət edərək dedi ki, "erməni millətçiliyinə son qoyun." Bu sözlər Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin bürosu üzünə bir sillə kimi dəydi.

Məhz Heydər Əliyev ermənilərin planlarını alt-üst etdi, Sov. İKP MK Siyasi bürosu üzvlərinin razı olduqları bir məsələ həll edilməmiş qaldı. Bu iki tarixi fərmanı imzalamağa Heydər Əliyevin mənəvi haqqı var idi. Beynəlxalq təşkilatlarla əlaqəsi olan, beynəlxalq tədbirlərdə iştirak edən hər kəsin xəbəri var ki, bu fərmanlar Ermənistan rəhbərliyini çox narahat edir, onlar beynəlxalq təşkilatlarda da öz narahatlıqlarını gizlədə bilmirlər.

Burada irəli sürülən təkliflərin, demək olar, hamısı cənab Prezidentin təsdiq etdiyi tədbirlər planında nəzərdə tutulub. Həmin plana görə, Azərbaycan Elmlər Akademiyasının nəzdində professional mütəxəssislərdən ibarət müstəqil mərkəz yaradılacaqdır. Mərkəz bu məsələ ilə məşğul olan bütün qurumların fəaliyyətini əlaqələndirəcəkdir. Dövlət arxivində fond yaradılaraq bütün tarixi sənədlər orada toplanacaqdır. Moskvada, Sankt-Peterburqda, Tbilisidə və başqa şəhərlərdə olan arxiv sənədlərinin surətləri alınacaq, yəni dövlət səviyyəsində tədbirlər görüləcək ki, həmin arxivlər öyrənilsin, müvafiq materiallar çap olunsun. Tədbirlər planında məqsədyönlü təbliğat aparılması, o cümlədən müxtəlif kitabların buraxılması, soyqırımı mövzusunun dərsliklərə daxil edilməsi, tarixi-coğrafi xəritələrin hazırlanması və bir çox başqa məsələlər də nəzərdə tutulmuşdur.



## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN SƏDRİ MURTUZ ƏLƏSGƏROVUN YEKUN NİTQİ

Hörmətli deputatlar, xanımlar və cənablar! Zənnimcə, bugünkü toplantımız çox faydalı oldu, ətraflı fikir mübadiləsi apardıq, çox dəyərli təkliflər irəli sürüldü. Bu təkliflərin hamısı möhtərəm Prezidentimiz Heydər Əliyevin dünən imzaladığı sərəncamda, yəni tədbirlər planında öz əksini tapmışdır. Söhbət ondan gedir ki, biz bu işi mütəmadi aparmalıyıq. Əminəm ki, seminar-simpoziumun, bundan sonra vaxtaşırı keçirəcəyimiz bütün digər tədbirlərin əməli nəticəsi olacaqdır.

Bizim zəif cəhətimiz budur ki, tarix boyu ermənilər Azərbaycan torpaqlarına göz dikdikləri halda biz susmuş, onların çirkin niyyətlərinə məhəl qoymamışıq. 1969-cu ildə Heydər Əliyev hakimiyyətə gələnə qədər addım-addım, qarış-qarış torpaqlarımızı itirmişik. Ermənilər Azərbaycanın torpaqlarını işğal etməyi qarşılarına məqsəd qoyublar. Biz bunu bilməliyik. Bu qədər hadisələr bizə dərs olmayıb. Nəticədə Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib, 1 milyondan çox soydaşımız öz vətənində qaçqına çevrilib, indi çadır şəhərciklərində çox ağır vəziyyətdə yaşayırlar.

Alimlər xalqımızın keçmişini diqqətlə araşdırmalı, ermənilərin tarixi saxtalaşdırmaq cəhdlərini alt-üst etməlidirlər. Mən çox şadam ki, indi tarixçilər 7 cildlik Azərbaycan tarixinin iki cildini hazırlayıb çap etdiriblər, o

biri cildlər üzərində çalışırlar. Onlar bir daha sübut ediblər ki, Qafqaz Albaniyası Azərbaycan ərazisində yerləşib. Ermənilər isə alban xaçlarını dəyişib erməni xaçları edirlər, alban kilsələrinə, o cümlədən Kəlbəcərdəki alban abidələrinə sahib çıxırlar. Biz belə bir mənfur və xain düşmənlə üz-üzə gəlmişik.

Hazırda Azərbaycan Respublikasının Milli Məclisi beynəlxalq tədbirlərdə fəal iştirak edir, deputatlarımız ATƏT-in Parlament Assambleyası, Avropa Şurasının Parlament Assambleyası, Müstəqil Dövlətlər Birliyinin Parlament Assambleyası kimi nüfuzlu beynəlxalq təşkilatlarda təmsil olunmuşlar. İndi biz Avropa Şurasına daxil olmaq ərəfəsindəyik. Bu yaxınlarda Strasburqda Avropa Şurası çərçivəsində Cənubi Qafqaz ölkələri parlament sədrlərinin görüşü oldu. Biz orada bəyan etdik: nə qədər ki Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını azad etməyib, o, Avropa Şurasının üzvlüyünə qəbul olunmamalıdır. Biz bu məsələni hər görüşdə qaldıracağıq. Ermənilər Azərbaycanın qədim şəhərləri Gəncə, Naxçıvan haqqında həyasızcasına kitablar buraxırlar. Hər şeydən görünür ki, onlar çirkin niyyətlərindən əl çəkməmişlər və güman edirəm ki, əl çəkməyəcəklər də.

Xalqımızı yeni faciələrdən xilas etmək, itirilmiş torpaqlarımızı qaytarmaq üçün hər şeydən əvvəl ölkə daxilində milli həmrəyliyə nail olmalıyıq. Cəmiyyətin hər bir üzvü bu işə bacardığı qədər kömək etməlidir. Azərbaycan Respublikasının Milli Məclisi bu məsələni daim diqqət mərkəzində saxlayır. Parlament BMT-yə, Parlamentlərarası İttifaqa, ATƏT-ə,



Avropa Şurasına, MDB-yə və digər beynəlxalq təşkilatlara, dünya ölkələrinin parlamentlərinə və hökumətlərinə bir neçə dəfə müraciət edərək onlardan XIX-XX əsrlərdə erməni millətçiliyinin və onun havadarlarının azərbaycanlılara qarşı törətdikləri soyqırımı cinayətlərini tanımağı, gələcəkdə soyqırımı cinayətlərinin cəzasız qalmasının qarşısını almaqdan ötrü təsirli beynəlxalq hüquq mexanizmlərinin yaradılması işini tezliklə başa çatdırmağı, azərbaycanlılara qarşı yeni soyqırımı cinayətlərinə yol verilməməsi üçün Ermənistan-Azərbaycan münaqişəsinin ATƏT-in Minsk qrupu çərçivəsində dinc yolla ədalətli həllinə kömək göstərməyi xahiş etmişdir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, beynəlxalq təşkilatlar, dünya ölkələrinin parlamentləri Milli Məclisin bu müraciətini cavabsız qoymayacaq, azərbaycanlılara qarşı erməni vəhşiliyi bir daha heç vaxt təkrar olunmayacaqdır.



















































# TRAGIC PAGES OF OUR HISTORY:

# GENOCIDE

EDITION OF THE MILLI MEJLIS
OF THE AZERBAIJAN REPUBLIC

Baku - 2000

**Murtuz ALESKEROV**
**Responsible for Edition**

THE DECREE OF THE PRESIDENT
OF THE REPUBLIC OF AZERBAIJAN

# ON THE GENOCIDE OF AZERBAIJANIS

After gaining independence the Republic of Azerbaijan has obtained the chance to illuminate the true picture of the historical past of our people.The truth kept as a secret prohibited and distorted for long years are being made public and get their real assessment.

The actions of genocide committed against the Azerbaijan people not once left without political and legal estimation for long years are the unopened pages of our history.

The peace pacts of Gulustan and Turkmenchay signed respectively in 1813 and 1828 laid the foundation of the division of the Azerbaijan people and of our historical territories. As a continuation of the national tragedy of the Azerbaijan people the occupation of its lands began. Within a short period of time this policy was turned into a reality and the Armenian population began to be settled on the Azerbaijan lands in mass from. The action of genocide became an integral part of the occupation of the Azerbaijani lands.

Though the Armenian population settled in the territories of the khanates of Erevan, Nakhichivan and Garabag formed the minority in comparison with the Azerbaijanis, they managed to create an administrative-territorial division called "the Armenian province" under the protection of their supporters. Such an artificial territorial-administrative division

in fact laid the foundation of the policy of ousting of the Azerbaijani population from their own lands and their annihilation. The idea of "The Great Armenia" began to be propagated. In order "to justify the creation" of this invented state on the Azerbaijani lands large-scale programs began to be carried out aimed at the falsification of the history of the Armenian people. The distortion of the history of Azerbaijan and of the Caucasus as a whole form an integral part of these programs.

Inspired by the illusion to create "the Great Armenia" the Armenian occupants committed large-scale bloody actions against the Azerbaijanis openly in 1905-1907. The barbarisms of Armenians which began in Baku soon covered the Azerbaijani villages in the territory of the present Armenia. Hundreds of dwelling settlements were ruined and levelled to the earth, thousands of Azerbaijanis were cruelly slaughtered. Obstacling to reaveal to the world the true essence of these crimes, the organizers of these bloody crimes began to create the negative image of Azerbaijanis and veil their adventurist territorial claims.

Making a skilful use of the World War I, the February Revolutions of 1917 in Russia and the October overthrow in the same year the Armenians began to realize their claims under the Bolshevik banner. Since March of 1918 under the slogan to fight against anti-revolutionary elements the Baku Commune began to implement into life a reactionary plan aimed at cleaning of Azerbaijanis from the whole Baku province. The crimes committed by the Armenians on those days have remained in the memory of the Azerbaijan people for ever. Thousands of peaceful and civil Azerbaijanis were murdered only because of their national adherence. The Armenians set the houses on Fire, hurried people alive. The pearls of the national architecture, schools, hospitals, mosques and other monuments were destroyed, a great part of Baku was turned into ruins.



The genocide of Azerbaijanis was carried out in the provinces of Baku, Shamakhi, Guba, in Karabakh, Zangazur, Nakhchivan, Lankaran and other rcgions of Azerbaijan with a particular brutality. The population were massacred in mass form in these territories, the villages were burnt, the national cultural monuments were destroyed and ruined.

Azerbaijan paid a special attention to the events of March 1918 after the establishement of the Peoples Republic. The Council of Ministers adopted a decision on June 15, 1918 on the formation of a special commission for the investigation of this crime. The Commission investigated the heavy crimes committed in Shaicakhi and the province of Erevan first. A special group was formed under the Ministry of Foreign Affairs to convey the truth to the world public. The 31st of March of 1919 and 1920 for the first time were noted as the day of national mourning by the Peoples Republic of Azerbaijan. In fact, it was the first attempt in the history to give a political estimation to the policy of genocide against the Azerbaijanis and to the processes connected with the occupation of our lands which continues over a century. But the fall of the Peoples Republic of Azerbaijan prevented to carry out this work to the end.

Making use of the Sovietisation of the Transcaucasus for their dirty goals the Armenians declared Zangazur and a number of other Azerbaijani lands Armenian territories. In future to expand the policy of deportation of Azerbaijanis from these lands they took to other new means. For this purpose they managed the adoption of a special resolution of the Council of Ministers of the USSR on the transmigration of the collective farmers and other Azerbaijani population to the valley of Kur-Araz of the Azerbaijani SSR from the Armenian SSR and the mass deportation of Azerbaijanis from their historical lands in 1948-1953.

The Armenian nationalists began a great moral compaign of aggression against the Azerbaijan people with the help of

their supporters since 1950. In the former Soviet space they began to prove in books and periodicals that the best examples of our national culture, classical heritage and monuments of architecture belonged to the Armenian people. At the same time the efforts to formulate the negative image of "the miserable Armenian people" the events of the region at the beginning of the century were intentionally distorted, committers of the genocide of Azerbaijanis were presented as victims of genocide. At the beginning of the century the Azerbaijanis which formed the majority in Erevan and later from other parts of the Armenian SSR were subjected to persecution and driven out in mass forms. The rights of Azerbaijanis were severely violated by the Armenians, obstacles were formed for them to get education in Azerbaijani, and other actions of repression were committed against them. The historical names of the Azerbaijani villages were changed, the process of substitution of the ancient toponyms, a matchless example in the history of toponymy, with the modern names began.

The falsified Armenian history was raised to the level of state policy in order to form a basis for the education of the young Armenians in spirit of chauvinism. Our young generation, educated in the spirit of the Azerbaijan literature and culture which served great humanist ideals, was subjected to persecutions of the extremist Armenian ideology. The slanders directed against the morals, national pride, ego of the Azerbaijan people created an ideological basis for political and military aggression. As the policy of genocide against our nation was not politically and legally estimated, the historical facts were distorted by the Armenian in the Soviet press and the public opinion was confused.

The administration of the Republic of Azerbaijan did not necessarily appreciate in its time, the growing anti-Azerbaijani propagation in the mids of 80s which the



Armenians implemented into life benefitting from the Soviet regime. The Republic of Azerbaijan also did not give a right political estimation to the deportation of hundreds of thousands of Azerbaijanis from their historical territories at the initial stage of the Nagorny Karabakh conflict invented in 1988.

Our people seriously objected against the anti-constitutional decision of Armenians on the inclusion of the Autonomous Province of Nagorny Karabakh of Azerbaijan into the Armenian SSR and exclusion of this province by Moscow from the subordination of Azerbaijan by the Special Administration Committee and was obliged to take to important political actions.

Though the policy of occupation of our lands were decisively denounced at the meetings held in the republic the administration of Azerbaijan remained passive in its position. Just as the result of this in order to suppress the growing national movement the Soviet troops were thrown to Baku in January of 1990, thousands of Azerbaijanis were killed, invalidated, wounded, and subjected to other physical pressures. In February 1992 the Armenians massacred the population of the town of Khojali in an incomparable manner. This bloody tragedy reflected in our history as the genocide of Khojali ended with the murder and captivity of thousands of Azerbaijanis and the complete destruction of the town.

As a result of the adventurist actions which began in the Nagorny Karabakh by the nationalist, separatist Armenians, today over a million of our compatriots, have left their native homes and are forced to live in tents. 20 per cent of our territory has been occupied by the armed troops of Armenia, thousands of our citizens have become martyrs, injured and wounded.

All the tragedies of Azerbaijan in XIX – XX centuries were accompanied by the occupation of our territories and

form various stages of the policy of genocide thought and committed against the Azerbaijanis by the Armenians. Only once an attempt was maid to give a political appreciation to one of these actions, that is, to the massacre of March in 1918. As the successor of the people of the Republic of Azerbaijan, the present Republic of Azerbaijan thinks its duty as the verdict of history to give a political appreciation of the actions of genocide as a logical continuation of decisions adopted by the former but not implemented to the life to the end.

To commemorate all the tragedies of the genocide committee against the Azerbaijan people **I resolve:**

1. The 31 of March shall be announced as the Day of Genocide of Azerbaijanis.

2. The Parliament of the Republic of Azerbaijan shall be recommended to consider con-vening of a special session devoted to events connected with the genocide of Azerbaijanis.

**Heydar ALIYEV**
**President of the Republic of Azerbaijan**

The city of Baku, March 26, 1998.



THE STATEMENT OF THE MILLI MEJLIS OF THE REPUBLIC OF AZERBAIJAN IN CONNECTION WITH THE DAY

## OF GENOCIDE OF AZERBAIJANIS

The Milli Mejlis of the Republic of Azerbaijan notes the importance of the Decree of the President of the Republic of Azerbaijan Heydar Aliyev as a first official document, which illuminates these dark pages of our history and thinks that on the eve of the 80 year anniversary of this crime committed against the Azerbaijanis the declaration of March 31 as the Day of Genocide of Azerbaijanis is an important political-legal and moral action aimed at giving an incentive to the revival of our national memory and exposure of the historical truth.

This important document for the first time names the mass genocide of Azerbaijanis, which was carried out with a particular brutality unknown in the human history after the forcible split of Azerbaijan, exposes the roots of the policy of ethnic hostilities pursued against the Azerbaijani population in the whole Transcaucasus by, the nationalist, chauvinist Armenian circles and the reactionary forces of super states who supported them, particulary in 1905-1907, 1918-1920. 1948-1953 and 1988-1993, gives the political appreciation of the reactionary activities of anti-Azerbaijani forces who chose the road of genocide against the Azerbaijanis, the native population of these territories, distruction of historical and cultural monuments, substitution

of the Azerbaijani geographical names by the Armenian ones in order to implement into life their illusion on "the Great Armenia".

After the Gulustan and Turkmenchay peace pacts which legalized the occupation of Azerbaijan by the tsarist Russia tens of thousands of Armenians were settled in Azerbaijan, and being of the same religion with Russians they were given great priviledges and rights in comparison with the local Azerbaijanis which soon led to ousting of the Azerbaijani population by the Russian-Armenian aliance. After the formation of the nationalist Armenian parties "Dashnak" and "Gnchak" and union of the fanatic Armenian masses around the chauvinistic ideas this process quickened more. In 1905, which coincided with the beginning of the First Russian Revolution, the organized armed Armenian forces became the first authors of a bloody crime like the terrible genocide on ethnic grounds in the Caucasus. In 1905-1907, they massacred the Azerbaijanis, put into fire towns and villages, murdered children, women and aged people with unseen brutality and cruelty in Baku, Tbilisi, Erevan, Nakhchivan, Ganja, Karabakh, Zangazur. Only in the provinces of Shusha, Jabrail, Javanshir and Zangazur 75 Azerbaijani villages were ruined and over 200 habitations in the provinces of Ganja and Erevan were distroyed. Survived from the brutality of Armenians tens of thousands of Azerbaijanis were obliged to leave their native lands and homes. This laid the foundations of humilating refugee tendencies, the age of which is already approaching a century.

The genocide against the Azerbaijanis widened its scales in 1918 when the central power in the tsarist Russia was in decay and the Russian empire lived in conditions of



anarchy. Only in March and April of 1918 over 50 thousand of Azerbaijanis were murdered ruthlessly in Baku, Shamakhi, Guba, Ivlugan, Lankaran, their houses were plundered and destroyed, tens of thousands of population were obliged to leave their homes and lands. Only in Baku about 30 thousand people were murdered with a particular ruthlessness, 58 villages of Shamaki were destroyed, about seven thousand people, including 1653 women and 965 children were killed, 122 Moslem villages were ruined in the province of Guba, over 150 villages in the Nagorny Karabakh, 115 villages in the province of Zangazur were savagely ruined, their inhabitants were slaughtered and shot irrespective of age and sex. 211 Azerbaijani villages in the province of Erevan, 92 villages in thc province of Kars were burned, destroyed and plundered. One of numerous appeals of the Azerbaijani population living in the province of Erevan says that within a very brief period of time 88 villages, 1920 houses were burned and destroyed in Erevan, a historically Azerbaijani town, and around it, 132 thousand people were murdered. As a result of brutalities committed by the punitive expedition of Armenians and the policy "Armenia without the Turkish" pursued by the Dashnak party the number of Azerbaijani population reduced from 375 thousand to 70 thousand between 1916-1922 in the province of Erevan. As it becomes evident, within a every brief time as a result of genocide and wide scale ethnic cleansing the Armenian nationalists reached their goal.

As the actions of genocide committed against the Azerbaijani population by the chauvinistic Armenian nationalists remained unpunished and these actions were not politically and legally estimated the Azerbaijani popu-

lation faced anti-humanistic policies in the period of the Soviet power not once. The fate of the Azerbaijani population living in the Armenian SSR is a striking proof of this well-thought disgraceful policy. As a result of ceaseless deportations, as well as the forcible deportations of 1948-1953 and 1988-1989 over half of a million Azerbaijanis were driven out from the Armenian SSR and their property was plundered.

The Armenian expansion which began in 1988, the ethinc cleansing and occupation war waged by Armenia in the Nagorny Karabakh increased the number of victims of the genocide of Azerbaijanis greatly. 20 percent of the Azerbaijan territory has been occupied, over 18 thousand Azerbaijanis killed, over 20 thousand wounded, over 50 thousand became invalids, over 4 thousand captivated and lost, taken hostages, over 4 thousand industrial and agricultural enterprises, 600 schools and kindergartens, 250 hospitals and medical institutions, 724 Azerbaijan towns, villages destroyed, burned and plundered. Khojali, a town in the Nagorny Karabakh, has been completely ruined, 613 of its inhabitants, including 63 small children, 100 women savagely murdered, 487 people have become invalids, 1275 people (old men, women and children) taken captives, humilated and insulted.

As a result of all this only in the XX century over two million of Azerbaijanis in some form have been subjected to the influence of the genocide policy of the chauvinist Armenian circles and their supporters. Probably there is no Azerbaijani family not damaged, harmed by the cruelty of the Armenian nationalists in some way.

In order to expose the truth and restore the historical justice, as well as to obstacle new actions of genocide against



the Azerbaijanis the Parliament of the Republic of Azerbaijan declares that the state of Azerbaijan which has chosen the road of democracy shall use all existing means and methods to inform the world public on the actions of genocide committed against the Azerbaijanis by the nationalism of Armenia and their anti-Azerbaijani supporters repeatedly in XIX-XX centuries.

Taking into account that the actions of genocide have remained unpunished and the world public lacks information, the Parliament of thc Republic of Azerbaijan appeals to the United Nations, Interparliamentory Union, OCSE, CIS, other international organizations and governments that:

1. to recognize the actions of genocide committed by the Armenian nationalists and their supporters against the Azerbaijanis in XIX-XX centuries;
2. to speed the completion of creation of effective international legal mechanisms in order to assist the punishment for the crimes of genocide in future;
3. to help the peaceful and just solution of the Armenian-Azerbaijan conflict in the frames of the Minsk group of OCSE in order to avoid new crimes of genocide against the Azerbajjanis.

**(The Statement was adopted at the session of the Milli Mejlis of the Republic of Azerbaijan on March 31, 1998)**

# PROCEEDINGS OF THE SEMINAR - SYMPOSIUM DEVOTED TO THE GENOCIDE AGAINST AZERIS

# MILLI MEJLIS OF THE AZERBAIJAN REPUBLIC MARCH 31, 1999

## INTRODUCTORY SPEECH OF MR. MURTUZ ALESKEROV, CHAIRMAN OF THE MILLI MEJLIS OF THE AZERBAIJAN REPUBLIC

Dear Parliamentarians!

Dear guests!

Ladies and gentlemen!

Today in the hall of the National Assembly we hold a seminar-symposium devoted to the Day of Genocide of Azeris. The aim of this meeting is to increase an exchange of information devoted to genocide against Azeris and to compile the information for publication in the Azerbaijan language and then for translation into other foreign languages and for distribution throughout the world community.

On March 26 last year H. E. Mr. Heydar Aliyev, the President of Azerbaijan issued a Decree and proclaimed March 31 as the Day of Genocide against Azeris. This Decree and address to the people of Azerbaijan was delivered by H. E. Mr. H.Aliyev the President of Azerbaijan on March 31, as well as a plan of action devoted to the execution of the Decree. He defined responsibilities for continuation of this job. We must



inform the world community about the results of genocide carried out by Armenians on the territory of Azerbaijan over the last two centuries and present them with the historic facts. Last year on December 31 after Mr. President had signed the Decree, the Milli Mejlis held its special meeting devoted to the genocide against Azeris. This meeting was attended by members of the Sub-Committee on Human Rights of the Legal Affairs and Human Rights Committee of the Council of Europe - parliamentarians from Turkey, Switzerland, Belgium, Holland, Italy, Poland and other countries, as well as by a delegation from Kars region of Turkey.

On that occasion we made a especial appeal to the world parliaments and to the authoritative international organizations. We informed them on the continuous suffering of the people of Azerbaijan from the massacre of the Armenian aggressors and nationalists.

The implementation of the genocide continued within 200 years. A process of separation of Azerbaijan had begun after Gulustan Treaty of 1813 and Turkmanchay Treaty of 1828 and came into force at the beginning of last century. Hundreds and thousands of Armenians resettled in Azerbaijan. They settled in Nakhchivan, Iravan Province and Garabag. Thus, it was the beginning of the massacre of Azeris by Armenians who cherished the idea of a "Great Armenia". Having the assistance of greater states Armenian aggressors gradually removed Azeris from Iravan province. According to the official information about half million of Azeris lived in Iravan in 1916. Within a 5-6 year period the number of Azeris decreased to 70.000 persons. There was a forced mass migration of Azeris from these territories. Many people were brutally murdered. Later on a policy of genocide against Azeris was gradually implemented in 1905-1907, 1918-1920,1948-1953 and 1988 -1990.

I would like to turn your attention to the Baku massacre. During the events of March 1918 17.000 Azeris were mur-

dered in Baku within 3 days. More than 50.000 Azeris died in Baku and in other regions of Azerbaijan as a result of Armenian atrocities. Similar tragedies also happened in Guba, Khachmaz, Agsu, Shamakhi, Lankaran and Mughan. Unfortunately, we were blind to these atrocities and did not learn from this tragedy.

From 1948 to 1953 and from 1988 to 1989 more than a half million Azeris were forced to move or were deported. The hardest period was 1988. As a result of the pro-Armenian policy of M.S.Gorbachov a new stage of the occupation of our land began. This time a policy against Karabakh was pursued with the assistance of Russia and resulted in the Khojaly tragedy. In February 1992 this city of Azerbaijan with a population of 7.000 citizens was fully destroyed. Children, women, old-aged persons were injured, 1275 persons were captured and assaulted.

Our meeting today should become a basis for our future activities. We should try to inform the world about the crimes and atrocities committed by Armenian nationalists. We will publish proceedings of the seminar - symposium and send copies to the parliaments of the world and to the international organizations.

We have to take lessons from history. Future generations should also be informed about the genocide against Azeris over the last two centuries. Issued Decree of H. E. Mr. President of Azerbaijan, as well as his address to the people of Azerbaijan call on us to reveal the true roots of real genocide and confront them as opposed to the invented genocide against Armenians. We have to report the truth to the world community.



## SPEECH OF MR. ATAKHAN PASHAYEV, HEAD OF THE STATE ARCHIVES AT THE CABINET OF MINISTERS OF THE AZERBAIJAN REPUBLIC

As far back as in the IV century Armenians lost their statehood. Within 1500 year period they tried to re-establish it. But all in vain. The true nature of Armenians was well known to Byzantines, that joined Byzantine Empire at times. If there were not settlement of Turks in Anadolu in the XI century Armenians would have a crash of their nation.It is interesting, that these facts were reflected in Armenian sources in detail, too. Same sources point out the contribution of Turk to the formation of Armenians as nation. After Turk"s coming to Anadolu Armenians had become free of military obligations. Armenians received rights to open their own schools, to establish churches and to use their own language. As Armenians were experienced in trade affairs they soon managed to be involve in commerce in Turkey, later on they managed to involve in economy, too. Soon, they displayed their malevolent character and opposed Turkey. They dreamt the creation of the "Great Armenia" on the territories of Osman Turkey. For this purpose they appealed to the European states at first. But it was in vain and then they addressed to Russia.

Armenians misused ingeniously of Tzar Peter"s I ideas of invasion to Southwards as well as his wishes to possess Southern Seas. It should be pointed out that Armenians contributed mostly to the coming of Russians to Caucasus. Armenians supported Russians by all means during Russian - Iranian and Russian - Turkish wars. Later on, as a compensation for that Armenians got from Russians everything they wanted. Armenians were empowered to be leaders in Turkish cities, regions and villages occupied by the army of the Tzar. Misusing given authorities to Armenians, they began to pursue a policy of genocide.

At the beginning of X I X century peace agreements were concluded between Russia and Turkey and Russia and Iran. Soon 86.000 ethnic Armenians from Turkey and 40.000 ethnic Armenians from Iran migrated to our territories — Western Azerbaijan presently named Armenia. A region was also conferred to Armenians who settled on the territories of Iravan, Nakhchivan and Karabakh Khanates. Later, several times Russian writer A. Griboyedov, who played a prominent role in the sphere of resettlement of Armenians in Caucasus mentioned Armenians as a treacherous nation. It seems that, Russians guessed the prime purpose of Armenians at first. That is why in 1846 while establishing a province governing method the Armenian region was abolished.

We could divide a policy of Armenians in Caucasus into two stages (lasting from beginning of X I X century till now): - from 20-30s to 80-90s strengthening of their positions on the territories of Azerbaijan; - beginning from 90s of the X I X century — claiming to the territories of Turkey and Azerbaijan.

